الفاتحة
وجزء عم
وترجمة معانيهما إلى
اللغة الأذرية

Translation of the Meanings of Surah al-Faatihah and Juz 'Amma
in the Azerbaijani (Azeri) Language

الفاتحة وجزء عمّ

وترجمة معانيهما إلى اللّغة الأذريّة

مجمع الملك فهد لطباعة المصحف الشريف

إنه لقرآن كريم في كتاب مكنون لا يمسه إلا المطهرون تنزيل من رب العالمين

مجمع الملك فهد لطباعة المصحف الشريف

Məlik Fəhd adınaQuran çapı mərkəzi

ح مجمع الملك فهد لطباعة المصحف الشريف، ١٤٢٤هـ

فهرسة مكتبة الملك فهد الوطنية أثناء النشر

مجمع الملك فهد لطباعة المصحف الشريف

ترجمة سورة الفاتحة وجزء عم باللغة الأذرية. – المدينة المنورة، ١٤٢٤هـ.

٧٢ ص، ١٤,٥ × ٢١ سم

ردمك : ٠ – ٧٨ – ٨٤٧ – ٩٩٦٠

١– القرآن – ترجمة – اللغة الأذرية أ– العنوان

ديوي ٢٢١,٤٩١٤٣٩ ٦٥٨٠/١٤٢٤

رقم الإيداع : ٦٥٨٠/١٤٢٤

ردمك : ٠ - ٧٨ - ٨٤٧ - ٩٩٦٠

əl-Fatihə («Kitabı açan») surəsi

1. Rəhmli, Mərhəmətli Allahın adı ilə!

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ ١

2. Həmd Allaha, aləmlərin Rəbbinə məxsusdur,

الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ ٢

3. Rəhmli, Mərhəmətli olana,

الرَّحْمَٰنِ الرَّحِيمِ ٣

4. Din gününün Sahibinə!

مَالِكِ يَوْمِ الدِّينِ ٤

5. Yalnız Sənə ibadət edir, yalnız Səndən kömək diləyirik.

إِيَّاكَ نَعْبُدُ وَإِيَّاكَ نَسْتَعِينُ ٥

6. Bizi doğru yola yönəlt!

اهْدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَ ٦

7. Bəxş etdiyin kəslərin yoluna, qəzəbə düçar olanların və azmışların yoluna yox!

صِرَاطَ الَّذِينَ أَنْعَمْتَ عَلَيْهِمْ غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِمْ وَلَا الضَّالِّينَ ٧

ən-Nəbə («Xəbər») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

1. Onlar bir-birindən nə barəsində soruşurlar?

عَمَّ يَتَسَآءَلُونَ ﴿١﴾

2. Böyük bir xəbər [Qiyamət və ya Quran] barəsində,

عَنِ ٱلنَّبَإِ ٱلْعَظِيمِ ﴿٢﴾

3. hansı ki, onlar onun barəsində ixtilafdadırlar.

ٱلَّذِى هُمْ فِيهِ مُخْتَلِفُونَ ﴿٣﴾

4. Xeyr, onlar [bu xəbərin haqq olduğunu] hökmən biləcəklər!

كَلَّا سَيَعْلَمُونَ ﴿٤﴾

5. Bir daha - xeyr, onlar [bu xəbərin haqq olduğunu] hökmən biləcəklər!

ثُمَّ كَلَّا سَيَعْلَمُونَ ﴿٥﴾

6. Məgər Biz yeri döşək etmədikmi?

أَلَمْ نَجْعَلِ ٱلْأَرْضَ مِهَٰدًا ﴿٦﴾

7. Dağları da payacıqlar?!

وَٱلْجِبَالَ أَوْتَادًا ﴿٧﴾

8. Biz sizi cüt-cüt yaratdıq.

وَخَلَقْنَٰكُمْ أَزْوَٰجًا ﴿٨﴾

9. Yuxunuzu da rahatlıq etdik.

وَجَعَلْنَا نَوْمَكُمْ سُبَاتًا ﴿٩﴾

10. Biz gecəni örtük etdik.

وَجَعَلْنَا ٱلَّيْلَ لِبَاسًا ﴿١٠﴾

11. Gündüzü də dolanacaq [ruzi qazanmaq vaxtı] etdik.

وَجَعَلْنَا ٱلنَّهَارَ مَعَاشًا ﴿١١﴾

12. Üzərinizdə yeddi [qat] möhkəm [göy] qurduq

وَبَنَيْنَا فَوْقَكُمْ سَبْعًا شِدَادًا ﴿١٢﴾

13. və çox parlaq, qızmar bir çıraq [günəş] yaratdıq.

وَجَعَلْنَا سِرَاجًا وَهَّاجًا ﴿١٣﴾

14. Biz buludlardan şırıl-şırıl

وَأَنزَلْنَا مِنَ ٱلْمُعْصِرَٰتِ مَآءً ثَجَّاجًا ﴿١٤﴾

tökülən su endirdik ki,

15. onunla dən və bitgi yetişdirək,

لِّنُخْرِجَ بِهِۦ حَبًّا وَنَبَاتًا ﴿١٥﴾

16. habelə [ağacları bir-birinə] sarmaşan bağlar.

وَجَنَّٰتٍ أَلْفَافًا ﴿١٦﴾

17. Həqiqətən, Ayırd etmə günü [Allah tərəfindən] müəyyən edilmiş vaxtdır!

إِنَّ يَوْمَ ٱلْفَصْلِ كَانَ مِيقَٰتًا ﴿١٧﴾

18. Surun üfürüləcəyi gün dəstə-dəstə [məhşərə] gələcəksiniz.

يَوْمَ يُنفَخُ فِى ٱلصُّورِ فَتَأْتُونَ أَفْوَاجًا ﴿١٨﴾

19. O gün göy açılıb [mələklərin yerə enməsi üçün] qapı-qapı olacaqdır.

وَفُتِحَتِ ٱلسَّمَآءُ فَكَانَتْ أَبْوَٰبًا ﴿١٩﴾

20. Dağlar da hərəkətə gətirilib ilğıma çevriləcəkdir.

وَسُيِّرَتِ ٱلْجِبَالُ فَكَانَتْ سَرَابًا ﴿٢٠﴾

21. Həqiqətən, Cəhənnəm [asi olanlar üçün hazırlanmış] pusqudur.

إِنَّ جَهَنَّمَ كَانَتْ مِرْصَادًا ﴿٢١﴾

22. O, həddi aşanların qayıdış yeridir.

لِّلطَّٰغِينَ مَـَٔابًا ﴿٢٢﴾

23. Onlar orada əsirlərlə qalacaqlar.

لَّٰبِثِينَ فِيهَآ أَحْقَابًا ﴿٢٣﴾

24. Onlar orada nə bir sərinlik, nə də [susuzluqlarını yatırtmaq üçün] bir içki dadacaqlar.

لَّا يَذُوقُونَ فِيهَا بَرْدًا وَلَا شَرَابًا ﴿٢٤﴾

25. [İçdikləri] yalnız qaynar su və irin [olacaq].

إِلَّا حَمِيمًا وَغَسَّاقًا ﴿٢٥﴾

26. [etdikləri əməllərinə]

جَزَآءً وِفَاقًا ﴿٢٦﴾

müvafiq cəza olaraq.

27. Həqiqətən, onlar haqq-hesab çəkiləcəyinə ümid etmirdilər.

إِنَّهُمْ كَانُوا۟ لَا يَرْجُونَ حِسَابًا ﴿٢٧﴾

28. Ayələrimizi də qətiyyətlə təkzib edirdilər.

وَكَذَّبُوا۟ بِـَٔايَٰتِنَا كِذَّابًا ﴿٢٨﴾

29. Biz hər bir şeyi hesaba alıb [lövhi-məhfuzda] yazmışıq.

وَكُلَّ شَىْءٍ أَحْصَيْنَٰهُ كِتَٰبًا ﴿٢٩﴾

30. Elə isə dadın! Biz sizə əzabdan başqa bir şey artırmayacağıq!

فَذُوقُوا۟ فَلَن نَّزِيدَكُمْ إِلَّا عَذَابًا ﴿٣٠﴾

31. Həqiqətən, müttəqiləri nicat yeri [Cənnət],

إِنَّ لِلْمُتَّقِينَ مَفَازًا ﴿٣١﴾

32. bağlar və üzümlüklər,

حَدَآئِقَ وَأَعْنَٰبًا ﴿٣٢﴾

33. dolğun döşlü həmyaşıd qızlar

وَكَوَاعِبَ أَتْرَابًا ﴿٣٣﴾

34. və dolu qədəhlər gözləyir!

وَكَأْسًا دِهَاقًا ﴿٣٤﴾

35. Onlar orada nə bir boş söz, nə də bir yalan eşidəcəklər.

لَّا يَسْمَعُونَ فِيهَا لَغْوًا وَلَا كِذَّٰبًا ﴿٣٥﴾

36. [Bu] sənin Rəbbindən olan mükafat və artıqlaması ilə verilən bəxşiş olacaq.

جَزَآءً مِّن رَّبِّكَ عَطَآءً حِسَابًا ﴿٣٦﴾

37. [O Rəbbindən ki] göylərin, yerin və onların arasında olanların Rəbbidir, Mərhəmətlidir. Onlar Ona bir söz belə deyə bilməyəcəklər.

رَّبِّ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ وَمَا بَيْنَهُمَا ٱلرَّحْمَٰنِ ۖ لَا يَمْلِكُونَ مِنْهُ خِطَابًا ﴿٣٧﴾

38. Ruh [Cəbrail] və mələklər səf-səf duracağı gün, Rəhmanın

يَوْمَ يَقُومُ ٱلرُّوحُ وَٱلْمَلَٰٓئِكَةُ صَفًّا ۖ

لَّا يَتَكَلَّمُونَ إِلَّا مَنْ أَذِنَ لَهُ ٱلرَّحْمَٰنُ وَقَالَ صَوَابًا ﴿٣٨﴾

izn verdiyi kimsələrdən və doğru danışanlardan başqa heç kəs danışmayacaq.

ذَٰلِكَ ٱلْيَوْمُ ٱلْحَقُّ ۖ فَمَن شَآءَ ٱتَّخَذَ إِلَىٰ رَبِّهِۦ مَـَٔابًا ﴿٣٩﴾

39. O, haqq olan gündür. Hər kim istəsə Rəbbinə tərəf qayıdan bir yol [sığınacaq] tapa bilər!

إِنَّآ أَنذَرْنَٰكُمْ عَذَابًا قَرِيبًا يَوْمَ يَنظُرُ ٱلْمَرْءُ مَا قَدَّمَتْ يَدَاهُ وَيَقُولُ ٱلْكَافِرُ يَٰلَيْتَنِى كُنتُ تُرَٰبًۢا ﴿٤٠﴾

40. Həqiqətən, Biz sizi yaxın bir əzabla qorxutduq. O gün insan öz əlləri ilə [axirət üçün özünə] nə hazırladığına nəzər salacaq, kafir isə: «Kaş mən [bu əzaba düçar olmamaq üçün] torpaq olaydım!» – deyəcəkdir.

ən-Naziat («Can alanlar») surəsi

سُورَةُ النَّازِعَاتِ

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. And olsun [kafirlərin bədənindən ruhu] zorla çıxaranlara!

2. And olsun [möminlərin bədənindən ruhu] rahatlıqla çıxaranlara!

3. And olsun [göydə] rəvan-rəvan üzənlərə!

4. And olsun [bir-birini] ötməklə ötüşənlərə!

5. And olsun buyuruqları yerinə yetirənlərə!

6. O gün titrəyən titrəyəcək [ilk dəfə surun üfürüldüyü gün, yer, göy lərzəyə gələcək və hər şey məhv olacaq],

7. onun ardınca yenə titrəyiş olacaq [ikinci dəfə surun üfürüldüyü gün hamı diriləcək].

8. O gün qəlblər qorxudan titrəyəcək,

9. o qəlblərin [sahiblərinin] gözləri zəlilcəsinə yerə dikiləcəkdir.

10. [Kafirlər, Axirətə inanmayanlar] deyirlər: «Dobrudanmı biz [yenidən] əvvəlki vəziyyətimizə qaytarılacağıq?!

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

وَٱلنَّٰزِعَٰتِ غَرۡقٗا ١

وَٱلنَّٰشِطَٰتِ نَشۡطٗا ٢

وَٱلسَّٰبِحَٰتِ سَبۡحٗا ٣

فَٱلسَّٰبِقَٰتِ سَبۡقٗا ٤

فَٱلۡمُدَبِّرَٰتِ أَمۡرٗا ٥

يَوۡمَ تَرۡجُفُ ٱلرَّاجِفَةُ ٦

تَتۡبَعُهَا ٱلرَّادِفَةُ ٧

قُلُوبٞ يَوۡمَئِذٖ وَاجِفَةٌ ٨

أَبۡصَٰرُهَا خَٰشِعَةٞ ٩

يَقُولُونَ أَءِنَّا لَمَرۡدُودُونَ فِي ٱلۡحَافِرَةِ ١٠

11. Həm də çürümüş sümüklər olduqdan sonra?!

أَءِذَا كُنَّا عِظَٰمًا نَّخِرَةً ﴿١١﴾

12. Onlar deyirlər: «Deməli, bu ziyanlı bir qayıdışdır».

قَالُواْ تِلْكَ إِذًا كَرَّةٌ خَاسِرَةٌ ﴿١٢﴾

13. O [ikinci dəfə surun üfürülməsi], yalnız bir dəhşətli səsdir.

فَإِنَّمَا هِيَ زَجْرَةٌ وَٰحِدَةٌ ﴿١٣﴾

14. Elə o zaman onlar [dərhal qəbirlərindən çıxıb] yerin səthində olacaqlar.

فَإِذَا هُم بِٱلسَّاهِرَةِ ﴿١٤﴾

15. Musanın əhvalatı sənə gəlib çatdımı?

هَلْ أَتَىٰكَ حَدِيثُ مُوسَىٰٓ ﴿١٥﴾

16. O zaman ki, Rəbbi onu müqəddəs Tuva vadisində çağırıb demişdir:

إِذْ نَادَىٰهُ رَبُّهُۥ بِٱلْوَادِ ٱلْمُقَدَّسِ طُوًى ﴿١٦﴾

17. «Fironun yanına get, həqiqətən o, həddini aşmışdır!

ٱذْهَبْ إِلَىٰ فِرْعَوْنَ إِنَّهُۥ طَغَىٰ ﴿١٧﴾

18. Və de: «[Günahlardan] təmizlənmək istəyirsənmi?

فَقُلْ هَل لَّكَ إِلَىٰٓ أَن تَزَكَّىٰ ﴿١٨﴾

19. Səni Rəbbinə tərəf [Ona ibadət etməyə] yönəldimmi ki, sən [Ondan] qorxasan?»

وَأَهْدِيَكَ إِلَىٰ رَبِّكَ فَتَخْشَىٰ ﴿١٩﴾

20. [Musa Allahın dediklərini Firona çatdırdıqdan sonra] ona ən böyük möcüzəni göstərdi.

فَأَرَىٰهُ ٱلْءَايَةَ ٱلْكُبْرَىٰ ﴿٢٠﴾

21. O isə [haqqı] təkzib edib asi oldu.

فَكَذَّبَ وَعَصَىٰ ﴿٢١﴾

22. Sonra da üz çevirib [fitnə-fəsad törətməyə] səy göstərdi.

ثُمَّ أَدْبَرَ يَسْعَىٰ ﴿٢٢﴾

23. O [camaatı] toplayıb [onları] uca səslə çağırdı

فَحَشَرَ فَنَادَىٰ ﴿٢٣﴾

24. və dedi: «Sizin ən uca rəbbiniz mənəm!»

فَقَالَ أَنَا۠ رَبُّكُمُ ٱلْأَعْلَىٰ ﴿٢٤﴾

25. Allah da onu axirət və dünya əzabına düçar etdi.

فَأَخَذَهُ ٱللَّهُ نَكَالَ ٱلْءَاخِرَةِ وَٱلْأُولَىٰٓ ﴿٢٥﴾

26. Həqiqətən, onda [Allahdan] qorxan bəndələr üçün ibrət vardır.

إِنَّ فِى ذَٰلِكَ لَعِبْرَةً لِّمَن يَخْشَىٰٓ ﴿٢٦﴾

27. Sizinmi yaradılışınız çətindir, yoxsa göyünmü?! O, onu qurdu,

ءَأَنتُمْ أَشَدُّ خَلْقًا أَمِ ٱلسَّمَآءُ ۚ بَنَىٰهَا ﴿٢٧﴾

28. onun qübbəsini ucaltdı və onu düzəldib kamil hala saldı,

رَفَعَ سَمْكَهَا فَسَوَّىٰهَا ﴿٢٨﴾

29. gecəsini qaranlıq etdi və səhərini çıxartdı [işıqlı etdi].

وَأَغْطَشَ لَيْلَهَا وَأَخْرَجَ ضُحَىٰهَا ﴿٢٩﴾

30. Yeri də ondan sonra döşədi,

وَٱلْأَرْضَ بَعْدَ ذَٰلِكَ دَحَىٰهَآ ﴿٣٠﴾

31. ondan suyunu və otlağını çıxartdı,

أَخْرَجَ مِنْهَا مَآءَهَا وَمَرْعَىٰهَا ﴿٣١﴾

32. dağları da [bərkidib] yerbə-

yer etdi,

وَٱلْجِبَالَ أَرْسَىٰهَا ﴿٣٢﴾

33. [Bu nemətlər] sizin və mal-qaranızın faydalanması üçündür.

مَتَٰعًا لَّكُمْ وَلِأَنْعَٰمِكُمْ ﴿٣٣﴾

34. Ən böyük fəlakət [Qiyamət] gəldiyi zaman,

فَإِذَا جَآءَتِ ٱلطَّآمَّةُ ٱلْكُبْرَىٰ ﴿٣٤﴾

35. o gün insan nələr etdiyini xatırlayacaqdır.

يَوْمَ يَتَذَكَّرُ ٱلْإِنسَٰنُ مَا سَعَىٰ ﴿٣٥﴾

36. Cəhənnəm də hər görənə

وَبُرِّزَتِ ٱلْجَحِيمُ لِمَن يَرَىٰ ﴿٣٦﴾

[əyani olaraq] göstəriləcəkdir.

37. Kim həddi aşmışsa,

فَأَمَّا مَن طَغَىٰ ٣٧

38. dünya həyatını üstün tutmuşsa,

وَءَاثَرَ ٱلۡحَيَوٰةَ ٱلدُّنۡيَا ٣٨

39. həqiqətən, Cəhənnəm onun sığınacağı olacaqdır.

فَإِنَّ ٱلۡجَحِيمَ هِيَ ٱلۡمَأۡوَىٰ ٣٩

40. Ancaq kim Rəbbinin məqamında [hüzurunda haqq-hesab üçün] dayanmaqdan qorxmuş və nəfsinə ehtirası qadağan etmişsə,

وَأَمَّا مَنۡ خَافَ مَقَامَ رَبِّهِۦ وَنَهَى ٱلنَّفۡسَ عَنِ ٱلۡهَوَىٰ ٤٠

41. həqiqətən, Cənnət onun sığınacağı olacaqdır.

فَإِنَّ ٱلۡجَنَّةَ هِيَ ٱلۡمَأۡوَىٰ ٤١

42. Səndən Saat [Qiyamət] barəsində soruşurlar ki, «nə zaman vaqe olacaq?»

يَسۡـَٔلُونَكَ عَنِ ٱلسَّاعَةِ أَيَّانَ مُرۡسَىٰهَا ٤٢

43. Onun xatırlanmasından sənə nə [fayda olacaq]?!

فِيمَ أَنتَ مِن ذِكۡرَىٰهَآ ٤٣

44. Onun tam bilmək sənin Rəbbinə aiddir.

إِلَىٰ رَبِّكَ مُنتَهَىٰهَآ ٤٤

45. Sən yalnız ondan [Qiyamətin dəhşətindən] çəkinəni qorxudansan.

إِنَّمَآ أَنتَ مُنذِرُ مَن يَخۡشَىٰهَا ٤٥

46. Onlar Qiyaməti gördükləri gün [bu dünyada] yalnız bir axşamqabağı [günortadan gün batana qədər], yaxud onun səhəri [gün çıxandan günortaya] qədər qaldıqlarını güman edəcəklər!

كَأَنَّهُمۡ يَوۡمَ يَرَوۡنَهَا لَمۡ يَلۡبَثُوٓاْ إِلَّا عَشِيَّةً أَوۡ ضُحَىٰهَا ٤٦

Əbəsə («Qaşqabağını tökdü») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. [O] qaşqabağını töküb üzünü döndərdi.

2. Yanına korun gəlməsindən dolayı.

3. Sən haradan bilirsən ki, ola bilsin ki, o təmizlənəcək,

4. yaxud nəsihət xatırlayacaq və bu xatırlama ona fayda verəcəkdir.

5. [Sənin öyüd-nəsihətinə] möhtac olduğunu hiss etməyən kimsəyə gəlincə,

6. sən ona diqqət yetirirsən [sözünü dinləyirsən].

7. Əgər o [iman gətirib küfrdən] təmizlənməzsə sənə nə olacaq?!

8. Ancaq səy göstərib sənin yanına gələn

9. və [Allahdan] qorxan kimsəyə gəlincə isə,

10. Sən ondan üz çevirirsən!

11. Xeyr! Şübhəsiz ki bu [ayələr], bir öyüd-nəsihətdir.

12. Kim istəsə, onu xatırlayar [və ondan ibrət alar].

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

عَبَسَ وَتَوَلَّىٰٓ ﴿١﴾

أَن جَآءَهُ ٱلۡأَعۡمَىٰ ﴿٢﴾

وَمَا يُدۡرِيكَ لَعَلَّهُۥ يَزَّكَّىٰٓ ﴿٣﴾

أَوۡ يَذَّكَّرُ فَتَنفَعَهُ ٱلذِّكۡرَىٰٓ ﴿٤﴾

أَمَّا مَنِ ٱسۡتَغۡنَىٰ ﴿٥﴾

فَأَنتَ لَهُۥ تَصَدَّىٰ ﴿٦﴾

وَمَا عَلَيۡكَ أَلَّا يَزَّكَّىٰ ﴿٧﴾

وَأَمَّا مَن جَآءَكَ يَسۡعَىٰ ﴿٨﴾

وَهُوَ يَخۡشَىٰ ﴿٩﴾

فَأَنتَ عَنۡهُ تَلَهَّىٰ ﴿١٠﴾

كَلَّآ إِنَّهَا تَذۡكِرَةٞ ﴿١١﴾

فَمَن شَآءَ ذَكَرَهُۥ ﴿١٢﴾

13. [Bu Allah kəlamı] çox möhtərəm səhifələrdə,

فِي صُحُفٍ مُّكَرَّمَةٍ ﴿١٣﴾

14. [uca məqama] qaldırılmış, təmizlənmiş [səhifələrdədir].

مَّرْفُوعَةٍ مُّطَهَّرَةٍۭ ﴿١٤﴾

15. [Bu səhifələr] elçilərin əllərindədir.

بِأَيْدِي سَفَرَةٍ ﴿١٥﴾

16. [O elçilər ki] möhtərəm və mütidirlər.

كِرَامٍۭ بَرَرَةٍ ﴿١٦﴾

17. Ölüm olsun insana! O necə də nankordur!

قُتِلَ ٱلْإِنسَٰنُ مَآ أَكْفَرَهُۥ ﴿١٧﴾

18. [Allah] onu hansı şeydən yaratdı?

مِنْ أَيِّ شَيْءٍ خَلَقَهُۥ ﴿١٨﴾

19. [Allah] onu nütfədən yaratdı və müəyyən şəklə saldı.

مِن نُّطْفَةٍ خَلَقَهُۥ فَقَدَّرَهُۥ ﴿١٩﴾

20. Sonra yolu [haqq yolunu, yaxud ana bətnindən çıxış yolunu] onun üçün asanlaşdırdı.

ثُمَّ ٱلسَّبِيلَ يَسَّرَهُۥ ﴿٢٠﴾

21. Sonra onu öldürüb qəbrə yerləşdirdi.

ثُمَّ أَمَاتَهُۥ فَأَقْبَرَهُۥ ﴿٢١﴾

22. Sonra istədiyi zaman onu dirildəcəkdir.

ثُمَّ إِذَا شَآءَ أَنشَرَهُۥ ﴿٢٢﴾

23. Xeyr! O, hələ də [Allahın] buyurduğunu yerinə yetirmir.

كَلَّا لَمَّا يَقْضِ مَآ أَمَرَهُۥ ﴿٢٣﴾

24. İnsan, yeməyinə bir nəzər salsın!

فَلْيَنظُرِ ٱلْإِنسَٰنُ إِلَىٰ طَعَامِهِۦٓ ﴿٢٤﴾

25. Həqiqətən biz yağışı bol-bol yağdırdıq.

أَنَّا صَبَبْنَا ٱلْمَآءَ صَبًّا ﴿٢٥﴾

26. Sonra da yeri çat-çat yardıq

ثُمَّ شَقَقْنَا ٱلْأَرْضَ شَقًّا ﴿٢٦﴾

27. və orada dən bitirdik,

فَأَنۢبَتْنَا فِيهَا حَبًّا ﴿٢٧﴾

28. üzüm və yonca,

29. zeytun və xurma bağları,

30. ağacları sıx-sıx [bir-birinə sarmaşan, iri gövdəli ağacları olan] bağlar,

31. meyvələr və otlar da [bitirdik].

32. [Bu nemətlər] sizin və mal-qaranızın faydalanması üçündür.

33. Elə ki, qulaqbatırıcı, dəhşətli səs gəldi,

34. o gün insan qaçacaq öz qardaşından,

35. anasından, atasından,

36. həyat yoldaşından və oğullarından!

37. O gün onlardan hər birinin yetərincə işi olacaqdır [yalnız öz hayına qalacaq]!

38. O gün [bir çox] üzlər parlayacaq,

39. güləcək, sevinəcəkdir.

40. O gün [bir çox] üzlərdə isə toz-torpaq olacaq,

41. onları zülmət [rəzil görkəm] bürüyəcəkdir.

42. Onlar [son iki ayə də vəsf olunanlar] kafirlər, günahkarlardır!

وَعِنَبًا وَقَضْبًا ﴿٢٨﴾

وَزَيْتُونًا وَنَخْلًا ﴿٢٩﴾

وَحَدَآئِقَ غُلْبًا ﴿٣٠﴾

وَفَٰكِهَةً وَأَبًّا ﴿٣١﴾

مَّتَٰعًا لَّكُمْ وَلِأَنْعَٰمِكُمْ ﴿٣٢﴾

فَإِذَا جَآءَتِ ٱلصَّآخَّةُ ﴿٣٣﴾

يَوْمَ يَفِرُّ ٱلْمَرْءُ مِنْ أَخِيهِ ﴿٣٤﴾

وَأُمِّهِۦ وَأَبِيهِ ﴿٣٥﴾

وَصَٰحِبَتِهِۦ وَبَنِيهِ ﴿٣٦﴾

لِكُلِّ ٱمْرِيٍٕ مِّنْهُمْ يَوْمَئِذٍ شَأْنٌ يُغْنِيهِ ﴿٣٧﴾

وُجُوهٌ يَوْمَئِذٍ مُّسْفِرَةٌ ﴿٣٨﴾

ضَاحِكَةٌ مُّسْتَبْشِرَةٌ ﴿٣٩﴾

وَوُجُوهٌ يَوْمَئِذٍ عَلَيْهَا غَبَرَةٌ ﴿٤٠﴾

تَرْهَقُهَا قَتَرَةٌ ﴿٤١﴾

أُوْلَٰٓئِكَ هُمُ ٱلْكَفَرَةُ ٱلْفَجَرَةُ ﴿٤٢﴾

ət-Təkvir («Sarınma») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. Günəş sarınanda [nuru gedəndə],

2. ulduzlar düşəndə,

3. dağlar [yerindən qoparılıb] hərəkətə gətiriləndə,

4. [onuncu ayına çatmış] boğaz dəvələr başlı-başına buraxılanda,

5. vəhşi heyvanlar bir yerə toplananda,

6. dənizlər alovlandırılanda,

7. ruhlar [hər biri öz tayına] qovuşdurulanda,

8. diri-diri [torpağa] gömülmüş qız soruşulanda,

9. [ki, o] hansı günaha görə öldürülmüşdür [deyiləcəkdir]?

10. [Bükülmüş] səhifələr [əməl dəftərləri] açılanda,

11. göy üzü soyulanda [bükü-ləndə],

12. cəhənnəm alovlandırılanda,

13. və Cənnət [Allahdan qorxanlara] yaxınlaşdırılanda,

14. hər kimsə [xeyir və şər əməllərindən] nə gətirdiyini biləcəkdir.

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

إِذَا ٱلشَّمْسُ كُوِّرَتْ ﴿١﴾

وَإِذَا ٱلنُّجُومُ ٱنكَدَرَتْ ﴿٢﴾

وَإِذَا ٱلْجِبَالُ سُيِّرَتْ ﴿٣﴾

وَإِذَا ٱلْعِشَارُ عُطِّلَتْ ﴿٤﴾

وَإِذَا ٱلْوُحُوشُ حُشِرَتْ ﴿٥﴾

وَإِذَا ٱلْبِحَارُ سُجِّرَتْ ﴿٦﴾

وَإِذَا ٱلنُّفُوسُ زُوِّجَتْ ﴿٧﴾

وَإِذَا ٱلْمَوْءُۥدَةُ سُئِلَتْ ﴿٨﴾

بِأَىِّ ذَنۢبٍ قُتِلَتْ ﴿٩﴾

وَإِذَا ٱلصُّحُفُ نُشِرَتْ ﴿١٠﴾

وَإِذَا ٱلسَّمَآءُ كُشِطَتْ ﴿١١﴾

وَإِذَا ٱلْجَحِيمُ سُعِّرَتْ ﴿١٢﴾

وَإِذَا ٱلْجَنَّةُ أُزْلِفَتْ ﴿١٣﴾

عَلِمَتْ نَفْسٌ مَّآ أَحْضَرَتْ ﴿١٤﴾

15. Yox, and içirəm geri çəkilənlərə [digər ulduzlardan fərqli olan istiqamətə hərəkət edənlərə],

فَلَآ أُقۡسِمُ بِٱلۡخُنَّسِ ١٥

16. seyr edib gizlənən səyyarələrə [gecə yanıb, gündüz görünməyən ulduzlara]!

ٱلۡجَوَارِ ٱلۡكُنَّسِ ١٦

17. And olsun qaralmaqda olan gecəyə,

وَٱلَّيۡلِ إِذَا عَسۡعَسَ ١٧

18. və açılmaqda olan sübh çağına!

وَٱلصُّبۡحِ إِذَا تَنَفَّسَ ١٨

19. Həqiqətən, bu [Quran] möhtərəm bir elçinin [Cəbrailin] sözüdür [gətirdiyi Allah kəlamıdır].

إِنَّهُۥ لَقَوۡلُ رَسُولٖ كَرِيمٖ ١٩

20. [O elçi ki] çox qüvvətli, ərşin Sahibi yanında çox hörmətlidir,

ذِي قُوَّةٍ عِندَ ذِي ٱلۡعَرۡشِ مَكِينٖ ٢٠

21. orada [mələklər arasında] itaət olunandır, həm də [Allahın ona tapşırdığı vəzifələri yerinə yetirməkdə] çox etibarlıdır.

مُّطَاعٖ ثَمَّ أَمِينٖ ٢١

22. Sizin dostunuz heç də dəli deyildir.

وَمَا صَاحِبُكُم بِمَجۡنُونٖ ٢٢

23. O, onu [Cəbraili] aydın üfüqdə gördü.

وَلَقَدۡ رَءَاهُ بِٱلۡأُفُقِ ٱلۡمُبِينِ ٢٣

24. O, qeybdən [ona bildirilənləri təbliğ etməyə] də xəsislik edən deyildir.

وَمَا هُوَ عَلَى ٱلۡغَيۡبِ بِضَنِينٖ ٢٤

25. O [Quran], daşqalaq olun-

وَمَا هُوَ بِقَوۡلِ شَيۡطَٰنٖ رَّجِيمٖ ٢٥

muş [Allahın Rəhmətindən qovulmuş, lənətlənmiş] şeytanın sözü də deyildir.

فَأَيْنَ تَذْهَبُونَ ﴿٢٦﴾

26. Elə isə hara gedirsiniz?

إِنْ هُوَ إِلَّا ذِكْرٌ لِّلْعَالَمِينَ ﴿٢٧﴾

27. O, aləmlər üçün yalnız bir öyüd-nəsihətdir.

لِمَن شَاءَ مِنكُمْ أَن يَسْتَقِيمَ ﴿٢٨﴾

28. Sizlərdən doğru [yolda] olmaq istəyən kimsələr üçün.

وَمَا تَشَاءُونَ إِلَّا أَن يَشَاءَ اللَّهُ رَبُّ الْعَالَمِينَ ﴿٢٩﴾

29. Aləmlərin Rəbbi Allah istəməsə, siz istəyə bilməzsiniz!

əl-İnfitar («Yarılma») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. Göy yarılanda,

2. ulduzlar dağılıb səpələnəndə,

3. dənizlər daşıb bir-birinə qarışanda,

4. qəbirlər çevriləndə,

5. hər kimsə [dünyada] nə etdiyini və nəyi tərk edib getdiyini biləcək.

6. Ey insan! Səni öz Səxavətli Rəbbinə qarşı azdıran nədir?

7. Hansı ki, səni yaratdı, səni düzəltdi və sənə gözəl bir biçim verdi,

8. səni istədiyi şəklə saldı.

9. Xeyr! Əksinə, [siz] haqq-hesab olunmağı yalan hesab edirsiniz!

10. Həqiqətən, sizin üstünüzdə gözətçilər –

11. Çox möhtərəm, [əməlləri] yazanlar [vardır ki,]

12. [onlar] sizin nə etdiklərinizi bilirlər.

13. Həqiqətən, itaətkarlar [möminlər] nemətlər içində olacaqlar.

سُورَةُ الانفِطَارِ

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

إِذَا ٱلسَّمَآءُ ٱنفَطَرَتْ ﴿١﴾

وَإِذَا ٱلْكَوَاكِبُ ٱنتَثَرَتْ ﴿٢﴾

وَإِذَا ٱلْبِحَارُ فُجِّرَتْ ﴿٣﴾

وَإِذَا ٱلْقُبُورُ بُعْثِرَتْ ﴿٤﴾

عَلِمَتْ نَفْسٌ مَّا قَدَّمَتْ وَأَخَّرَتْ ﴿٥﴾

يَٰٓأَيُّهَا ٱلْإِنسَٰنُ مَا غَرَّكَ بِرَبِّكَ ٱلْكَرِيمِ ﴿٦﴾

ٱلَّذِى خَلَقَكَ فَسَوَّىٰكَ فَعَدَلَكَ ﴿٧﴾

فِىٓ أَىِّ صُورَةٍ مَّا شَآءَ رَكَّبَكَ ﴿٨﴾

كَلَّا بَلْ تُكَذِّبُونَ بِٱلدِّينِ ﴿٩﴾

وَإِنَّ عَلَيْكُمْ لَحَٰفِظِينَ ﴿١٠﴾

كِرَامًا كَٰتِبِينَ ﴿١١﴾

يَعْلَمُونَ مَا تَفْعَلُونَ ﴿١٢﴾

إِنَّ ٱلْأَبْرَارَ لَفِى نَعِيمٍ ﴿١٣﴾

14. Və şübhəsiz ki, günahkarlar Cəhənnəmdə olacaqlar.

وَإِنَّ ٱلۡفُجَّارَ لَفِي جَحِيمٖ ١٤

15. Onlar ora haqq-hesab günü girəcəklər.

يَصۡلَوۡنَهَا يَوۡمَ ٱلدِّينِ ١٥

16. Onlar əsla ondan yayına bilməyəcəklər [Cəhənnəm odundan çıxan deyillər]!

وَمَا هُمۡ عَنۡهَا بِغَآئِبِينَ ١٦

17. Sən nə bilərdin ki, Din günü nədir?!

وَمَآ أَدۡرَىٰكَ مَا يَوۡمُ ٱلدِّينِ ١٧

18. Bir daha, sən nə bilərdin ki, Din günü nədir?!

ثُمَّ مَآ أَدۡرَىٰكَ مَا يَوۡمُ ٱلدِّينِ ١٨

19. O gün kimsə kimsəyə fayda verə bilməz. Və o gün hökm yalnız Allahın olacaqdır!

يَوۡمَ لَا تَمۡلِكُ نَفۡسٞ لِّنَفۡسٖ شَيۡـٔٗاۖ وَٱلۡأَمۡرُ يَوۡمَئِذٖ لِّلَّهِ ١٩

əl-Mutaffifin («Çəkidə və ölçüdə aldadanlar») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

1. Vay çəkidə və ölçüdə aldadanların halına!

وَيْلٌ لِّلْمُطَفِّفِينَ ١

2. O kəslər ki [özləri] camaatdan [bir şey] aldıqda [onu] düz çəkməyi tələb edər,

ٱلَّذِينَ إِذَا ٱكْتَالُوا۟ عَلَى ٱلنَّاسِ يَسْتَوْفُونَ ٢

3. Onlar üçün [bir şey] çəkdikdə və ya ölçdükdə isə [onları] ziyana salarlar [əskik verərlər].

وَإِذَا كَالُوهُمْ أَو وَّزَنُوهُمْ يُخْسِرُونَ ٣

4. Məgər onlar düşünmürlər ki, diriləcəklər,

أَلَا يَظُنُّ أُو۟لَٰٓئِكَ أَنَّهُم مَّبْعُوثُونَ ٤

5. [özü də] əzəmətli gündə,

لِيَوْمٍ عَظِيمٍ ٥

6. o gün ki, insanlar aləmlərin Rəbbinin hüzurunda duracaqlar?!

يَوْمَ يَقُومُ ٱلنَّاسُ لِرَبِّ ٱلْعَٰلَمِينَ ٦

7. Xeyr! Həqiqətən, günahkarların [əməl yazısı olan] kitabı Siccindədir!

كَلَّآ إِنَّ كِتَٰبَ ٱلْفُجَّارِ لَفِى سِجِّينٍ ٧

8. Sən nə bilərdin ki, Siccin nədir?!

وَمَآ أَدْرَىٰكَ مَا سِجِّينٌ ٨

9. [O] yazılmış kitabdır [kitabın saxlanılan yeridir]!

كِتَٰبٌ مَّرْقُومٌ ٩

10. O gün vay halına təkzib edənlərin!

وَيْلٌ يَوْمَئِذٍ لِّلْمُكَذِّبِينَ ١٠

11. O kəslər ki haqq-hesab gününü təkzib edirlər.

ٱلَّذِينَ يُكَذِّبُونَ بِيَوْمِ ٱلدِّينِ ١١

12. Onu da yalnız həddi aşan,

وَمَا يُكَذِّبُ بِهِۦٓ إِلَّا كُلُّ مُعْتَدٍ أَثِيمٍ ١٢

günahkar təkzib edir.

إِذَا تُتْلَىٰ عَلَيْهِ ءَايَٰتُنَا قَالَ أَسَٰطِيرُ ٱلْأَوَّلِينَ ١٣

13. Bizim ayələr ona oxunduğu zaman: «[Bunlar] əvvəlkilərin [xalqların] əsatirləridir!» – deyər.

كَلَّاۖ بَلْۜ رَانَ عَلَىٰ قُلُوبِهِم مَّا كَانُواْ يَكْسِبُونَ ١٤

14. Xeyr! Əksinə, onların qəlblərini qazandıqları [günahlar] bürümüşdür.

كَلَّآ إِنَّهُمْ عَن رَّبِّهِمْ يَوْمَئِذٍ لَّمَحْجُوبُونَ ١٥

15. Xeyr! O gün onlar Rəbbindən örtüklə ayrılacaqlar [Onu görməyəcəklər]!

ثُمَّ إِنَّهُمْ لَصَالُواْ ٱلْجَحِيمِ ١٦

16. Sonra onlar Cəhənnəmə girəcəklər.

ثُمَّ يُقَالُ هَٰذَا ٱلَّذِي كُنتُم بِهِۦ تُكَذِّبُونَ ١٧

17. Sonra da onlara: «Budur o [sizin] təkzib etdiyiniz [Cəhənnəm]!» – deyiləcəkdir.

كَلَّآ إِنَّ كِتَٰبَ ٱلْأَبْرَارِ لَفِي عِلِّيِّينَ ١٨

18. Xeyr! Həqiqətən, itaətkarların kitabı İlliyyundadır!

وَمَآ أَدْرَىٰكَ مَا عِلِّيُّونَ ١٩

19. Sən nə bilərdin ki, İlliyyun nədir?!

كِتَٰبٌ مَّرْقُومٌ ٢٠

20. [O] yazılmış kitabdır [kitabın saxlanılan yeridir]!

يَشْهَدُهُ ٱلْمُقَرَّبُونَ ٢١

21. Onu [yalnız Allaha] yaxın olanlar görür!

إِنَّ ٱلْأَبْرَارَ لَفِي نَعِيمٍ ٢٢

22. Həqiqətən, itaətkarlar [möminlər] nemətlər içində olacaqlar.

عَلَى ٱلْأَرَآئِكِ يَنظُرُونَ ٢٣

23. [Onlar] taxtlar üstündə [ətrafı] seyr edəcəklər.

تَعْرِفُ فِي وُجُوهِهِمْ نَضْرَةَ ٱلنَّعِيمِ ٢٤

24. [Sən] onların üzlərində

səadət parıltısı görəcəksən.

يُسۡقَوۡنَ مِن رَّحِيقٖ مَّخۡتُومٍ ٢٥

25. Onlara möhürlü [çox keyfiyyətli] şərab içirdiləcəkdir.

خِتَٰمُهُۥ مِسۡكٞۚ وَفِي ذَٰلِكَ فَلۡيَتَنَافَسِ ٱلۡمُتَنَٰفِسُونَ ٢٦

26. Onun möhürü [qabın dibində qalanı] isə müşkdür. Qoy yarışanlar onun üçün yarışsınlar!

وَمِزَاجُهُۥ مِن تَسۡنِيمٍ ٢٧

27. Ona təsnim qatılmışdır.

عَيۡنٗا يَشۡرَبُ بِهَا ٱلۡمُقَرَّبُونَ ٢٨

28. O [təsnim] elə bir bulaqdır ki, ondan ancaq [Allaha] yaxın olanlar içər.

إِنَّ ٱلَّذِينَ أَجۡرَمُواْ كَانُواْ مِنَ ٱلَّذِينَ ءَامَنُواْ يَضۡحَكُونَ ٢٩

29. Doğrudan da, günahkar olanlar iman gətirmiş kimsələrə gülürdülər,

وَإِذَا مَرُّواْ بِهِمۡ يَتَغَامَزُونَ ٣٠

30. onların yanından keçdikdə bir-birinə qaş-göz edirdilər,

وَإِذَا ٱنقَلَبُوٓاْ إِلَىٰٓ أَهۡلِهِمُ ٱنقَلَبُواْ فَكِهِينَ ٣١

31. Öz ailələrinin yanına qayıtdıqda, fərəhlə [özlərini darta-darta] qayıdırdılar,

وَإِذَا رَأَوۡهُمۡ قَالُوٓاْ إِنَّ هَٰٓؤُلَآءِ لَضَآلُّونَ ٣٢

32. onları gördükdə deyirdilər: «Şübhəsiz ki, bunlar azmışlardır!»

وَمَآ أُرۡسِلُواْ عَلَيۡهِمۡ حَٰفِظِينَ ٣٣

33. [Onlar] onlara [möminlərə] gözətçi göndərilməmişdilər.

فَٱلۡيَوۡمَ ٱلَّذِينَ ءَامَنُواْ مِنَ ٱلۡكُفَّارِ يَضۡحَكُونَ ٣٤

34. O gün isə iman gətirmiş kimsələr kafirlərə güləcəklər.

عَلَى ٱلۡأَرَآئِكِ يَنظُرُونَ ٣٥

35. [Onlar] taxtlar üstündə [ətrafı] seyr edəcəklər.

هَلۡ ثُوِّبَ ٱلۡكُفَّارُ مَا كَانُواْ يَفۡعَلُونَ ٣٦

36. Məgər kafirlər etdiklərinin [öz əməllərinin] cəzasını almadılar?!

əl-İnşiqaq («Aralanma») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

1. Göy aralanacağı zaman,

إِذَا ٱلسَّمَآءُ ٱنشَقَّتۡ ١

2. Rəbbini dinləyəcək [əmrinə diqqət yetirib Ona itaət edəcək] və [bu da ona] gərəkli olacaqdır;

وَأَذِنَتۡ لِرَبِّهَا وَحُقَّتۡ ٢

3. Yer uzadılıb dümdüz olacağı zaman,

وَإِذَا ٱلۡأَرۡضُ مُدَّتۡ ٣

4. içində olanları bayıra atacaq və boşalacaq,

وَأَلۡقَتۡ مَا فِيهَا وَتَخَلَّتۡ ٤

5. Rəbbini dinləyəcək [əmrinə diqqət yetirib Ona itaət edəcək] və bu da ona gərəkli olacaqdır;

وَأَذِنَتۡ لِرَبِّهَا وَحُقَّتۡ ٥

6. Ey insan! Həqiqətən, sən səy göstərib Rəbbinə tərəf can atırsan və Onunla qarşılaşacaqsan.

يَٰٓأَيُّهَا ٱلۡإِنسَٰنُ إِنَّكَ كَادِحٌ إِلَىٰ رَبِّكَ كَدۡحٗا فَمُلَٰقِيهِ ٦

7. Kimin ki öz [əməl yazısı olan] kitabı sağ əlinə veriləcək,

فَأَمَّا مَنۡ أُوتِيَ كِتَٰبَهُۥ بِيَمِينِهِۦ ٧

8. [o,] yüngül haqq-hesabla hesaba çəkiləcək

فَسَوۡفَ يُحَاسَبُ حِسَابٗا يَسِيرٗا ٨

9. və ailəsinin yanına sevinclə qayıdacaqdır!

وَيَنقَلِبُ إِلَىٰٓ أَهۡلِهِۦ مَسۡرُورٗا ٩

10. Kimin ki öz [əməl yazısı olan] kitabı arxa tərəfindən veriləcək,

وَأَمَّا مَنۡ أُوتِيَ كِتَٰبَهُۥ وَرَآءَ ظَهۡرِهِۦ ١٠

11. [o, özünə] ölüm diləyəcək,

فَسَوۡفَ يَدۡعُواْ ثُبُورٗا ١١

12. və şiddətli atəşə girəcəkdir!

وَيَصۡلَىٰ سَعِيرًا ١٢

13. Həqiqətən, o, öz ailəsində olarkən sevinc içində idi.

إِنَّهُۥ كَانَ فِيٓ أَهۡلِهِۦ مَسۡرُورًا ﴿١٣﴾

14. Və elə güman edirdi ki, [Rəbbinin hüzuruna] qayıtmayacaqdır.

إِنَّهُۥ ظَنَّ أَن لَّن يَحُورَ ﴿١٤﴾

15. Xeyr! Doğrusu, onun Rəbbi görürdü onu.

بَلَىٰٓۚ إِنَّ رَبَّهُۥ كَانَ بِهِۦ بَصِيرٗا ﴿١٥﴾

16. Yox, and içirəm şəfəqə [axşam şəfəqinə]!

فَلَآ أُقۡسِمُ بِٱلشَّفَقِ ﴿١٦﴾

17. And olsun gecəyə və [onun] topladıqlarına!

وَٱلَّيۡلِ وَمَا وَسَقَ ﴿١٧﴾

18. And olsun bütövləşmiş aya!

وَٱلۡقَمَرِ إِذَا ٱتَّسَقَ ﴿١٨﴾

19. [Siz] haldan-hala düşürsünüz.

لَتَرۡكَبُنَّ طَبَقًا عَن طَبَقٖ ﴿١٩﴾

20. Onlara nə [mane] olub ki, iman gətirmirlər

فَمَا لَهُمۡ لَا يُؤۡمِنُونَ ﴿٢٠﴾

21. və özlərinə Quran oxunduqda səcdə etmirlər?

وَإِذَا قُرِئَ عَلَيۡهِمُ ٱلۡقُرۡءَانُ لَا يَسۡجُدُونَۤ۩ ﴿٢١﴾

22. Əksinə, küfr etmiş kimsələr [bunu] yalan sayırlar.

بَلِ ٱلَّذِينَ كَفَرُواْ يُكَذِّبُونَ ﴿٢٢﴾

23. Və Allah [onların] nəyi gizlətdiklərini daha gözəl bilir!

وَٱللَّهُ أَعۡلَمُ بِمَا يُوعُونَ ﴿٢٣﴾

24. Onları üzücü bir əzabla müjdələ!

فَبَشِّرۡهُم بِعَذَابٍ أَلِيمٍ ﴿٢٤﴾

25. Yalnız iman gətirib saleh əməllər etmiş kimsələrdən başqa. Onlar üçün tükənməz mükafat vardır.

إِلَّا ٱلَّذِينَ ءَامَنُواْ وَعَمِلُواْ ٱلصَّٰلِحَٰتِ لَهُمۡ أَجۡرٌ غَيۡرُ مَمۡنُونِۭ ﴿٢٥﴾

əl-Buruc («Bürclər») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

1. And olsun bürclər sahibi olan göyə!

وَٱلسَّمَآءِ ذَاتِ ٱلْبُرُوجِ ﴿١﴾

2. And olsun vəd olunmuş günə!

وَٱلْيَوْمِ ٱلْمَوْعُودِ ﴿٢﴾

3. And olsun şahid olana və müşahidə olunana!

وَشَاهِدٍ وَمَشْهُودٍ ﴿٣﴾

4. Həlak olsun xəndək sahibləri!

قُتِلَ أَصْحَٰبُ ٱلْأُخْدُودِ ﴿٤﴾

5. O atəş ki, odunla alovlandırılmışdı.

ٱلنَّارِ ذَاتِ ٱلْوَقُودِ ﴿٥﴾

6. O vaxt onlar onun [alovun] yanında oturub,

إِذْ هُمْ عَلَيْهَا قُعُودٌ ﴿٦﴾

7. möminlərə nə etdiklərini müşahidə edirdilər.

وَهُمْ عَلَىٰ مَا يَفْعَلُونَ بِٱلْمُؤْمِنِينَ شُهُودٌ ﴿٧﴾

8. [Kafilər] onlardan yalnız ona görə intiqam alırdılar ki, [onlar] Qüdrətli, Tərifəlayiq Allaha iman gətirmişdilər.

وَمَا نَقَمُوا۟ مِنْهُمْ إِلَّآ أَن يُؤْمِنُوا۟ بِٱللَّهِ ٱلْعَزِيزِ ٱلْحَمِيدِ ﴿٨﴾

9. Hansı ki, göylərin və yerin mülkü Ona məxsusdur. Və Allah hər şeyə şahiddir.

ٱلَّذِى لَهُۥ مُلْكُ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ ۚ وَٱللَّهُ عَلَىٰ كُلِّ شَىْءٍ شَهِيدٌ ﴿٩﴾

10. Həqiqətən, o kimsələr ki, mömin kişi və qadınları [yandırmaqla] sınağa çəkmiş, sonra da tövbə etməmişlər, onlar üçün Cəhənnəm əzabı və yandırıb-yaxan əzab hazırlanmışdır.

إِنَّ ٱلَّذِينَ فَتَنُوا۟ ٱلْمُؤْمِنِينَ وَٱلْمُؤْمِنَٰتِ ثُمَّ لَمْ يَتُوبُوا۟ فَلَهُمْ عَذَابُ جَهَنَّمَ وَلَهُمْ عَذَابُ ٱلْحَرِيقِ ﴿١٠﴾

11. Həqiqətən, o kimsələr ki, iman gətirib saleh əməllər etmişlər, onlar üçün altından [ağacları dibindən] çaylar axan Cənnətlər hazırlanmışdır. Bu, böyük uğurdur!

إِنَّ ٱلَّذِينَ ءَامَنُوا۟ وَعَمِلُوا۟ ٱلصَّٰلِحَٰتِ لَهُمْ جَنَّٰتٌ تَجْرِى مِن تَحْتِهَا ٱلْأَنْهَٰرُ ۚ ذَٰلِكَ ٱلْفَوْزُ ٱلْكَبِيرُ ﴿١١﴾

12. Doğrudan da, sənin Rəbbinin [əzabla] yaxalaması çox şiddətlidir!

إِنَّ بَطْشَ رَبِّكَ لَشَدِيدٌ ﴿١٢﴾

13. Həqiqətən, [kainatı] ilkin yaradan və [onu məhv etdikdən sonra yenidən] geri qaytaran Odur!

إِنَّهُۥ هُوَ يُبْدِئُ وَيُعِيدُ ﴿١٣﴾

14. Bağışlayan da, Sevən də [Sevilən də] Odur!

وَهُوَ ٱلْغَفُورُ ٱلْوَدُودُ ﴿١٤﴾

15. Ərşin Sahibi, Şanlı olan da Odur! [yaxud Şanlı Ərşin Sahibi də Odur!]

ذُو ٱلْعَرْشِ ٱلْمَجِيدُ ﴿١٥﴾

16. [O,] İstədiyini edəndir.

فَعَّالٌ لِّمَا يُرِيدُ ﴿١٦﴾

17. Orduların əhvalatı sənə gəlib çatdımı?

هَلْ أَتَىٰكَ حَدِيثُ ٱلْجُنُودِ ﴿١٧﴾

18. Firon və Səmud [ordularının].

فِرْعَوْنَ وَثَمُودَ ﴿١٨﴾

19. Bəli, küfr etmiş kimsələr təkzib etməkdədirlər.

بَلِ ٱلَّذِينَ كَفَرُوا۟ فِى تَكْذِيبٍ ﴿١٩﴾

20. Allah [onları] arxalarından [hər tərəfdən] əhatə etmişdir.

وَٱللَّهُ مِن وَرَآئِهِم مُّحِيطٌۢ ﴿٢٠﴾

21. Əksinə, o, şanlı Qurandır,

بَلْ هُوَ قُرْءَانٌ مَّجِيدٌ ﴿٢١﴾

22. Lövhi-məhfuzdadır.

فِى لَوْحٍ مَّحْفُوظٍۭ ﴿٢٢﴾

ət-Tariq («Gecə gələn») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. And olsun səmaya və gecə gələnə!

2. Sən nə bilərdin ki, gecə gələn nədir?!

3. [O, işığı zülməti] deşib keçən ulduzdur.

4. Elə bir kimsə yoxdur ki, onun üstündə gözətçi olmasın!

5. Qoy insan nədən xəlq olunduğuna bir baxsın!

6. [O,] təkanla çıxan sudan [nütfədən] xəlq olunmuşdur.

7. [O,] bel və köks sümükləri arasından çıxır.

8. Həqiqətən, O [Allah], onu qaytarmağa qadirdir!

9. Sirlərin aşkar olacağı gün,

10. Onun nə bir qüvvəsi, nə də bir köməkçisi olar!

11. And olsun [yağmurla] qayıdan göyə [buluda]!

12. And olsun yarılan yerə!

13. Həqiqətən, bu [Quran, haqq ilə batili] ayırd edən bir kəlamdır.

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

وَٱلسَّمَآءِ وَٱلطَّارِقِ ١

وَمَآ أَدْرَىٰكَ مَا ٱلطَّارِقُ ٢

ٱلنَّجْمُ ٱلثَّاقِبُ ٣

إِن كُلُّ نَفْسٍ لَّمَّا عَلَيْهَا حَافِظٌ ٤

فَلْيَنظُرِ ٱلْإِنسَٰنُ مِمَّ خُلِقَ ٥

خُلِقَ مِن مَّآءٍ دَافِقٍ ٦

يَخْرُجُ مِنۢ بَيْنِ ٱلصُّلْبِ وَٱلتَّرَآئِبِ ٧

إِنَّهُۥ عَلَىٰ رَجْعِهِۦ لَقَادِرٌ ٨

يَوْمَ تُبْلَى ٱلسَّرَآئِرُ ٩

فَمَا لَهُۥ مِن قُوَّةٍ وَلَا نَاصِرٍ ١٠

وَٱلسَّمَآءِ ذَاتِ ٱلرَّجْعِ ١١

وَٱلْأَرْضِ ذَاتِ ٱلصَّدْعِ ١٢

إِنَّهُۥ لَقَوْلٌ فَصْلٌ ١٣

14. Və o, əyləncə [batil bir kəlam] deyildir.

وَمَا هُوَ بِٱلۡهَزۡلِ ١٤

15. Doğrusu, onlar [kafirlər] hiylə qururlar.

إِنَّهُمۡ يَكِيدُونَ كَيۡدٗا ١٥

16. Və Mən də [onların bu hiyləsinə qarşılıqlı olaraq] hiylə qururam.

وَأَكِيدُ كَيۡدٗا ١٦

17. Elə isə kafirlərə möhlət ver! Onlara bir az da möhlət ver!

فَمَهِّلِ ٱلۡكَٰفِرِينَ أَمۡهِلۡهُمۡ رُوَيۡدَۢا ١٧

əl-Ə'la («Ən Uca») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. Ən Uca Rəbbinin adını tutub şəninə təriflər de!

2. Hansı ki, [hər şeyi] xəlq etdi və düzəldib kamil hala saldı,

3. Hansı ki, [hər şeyin müqəddəratını] əvvəldən müəyyən etdi və yol göstərdi,

4. Hansı ki, otlaq çıxartdı,

5. Sonra da onu qaralmış çör-çöp etdi.

6. Biz sənə [Quranı] oxudacağıq, sən də unutmayacaqsan,

7. Allahın istədiklərindən başqa. Həqiqətən, O, aşkarı da, gizlin qalanı da bilir.

8. Biz sənə ən asan olanı müyəssər edərik.

9. Əgər öyüd-nəsihət fayda versə, öyüd-nəsihət ver!

10. [Allahdan] qorxan kimsə [onu] qəbul edəcəkdir!

11. Ən bədbəxt [olan kimsə] isə ondan qaçacaqdır.

12. O kimsə ki ən böyük oda girəcəkdir.

13. Sonra isə orada [o,] nə

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

سَبِّحِ ٱسۡمَ رَبِّكَ ٱلۡأَعۡلَى ١

ٱلَّذِي خَلَقَ فَسَوَّىٰ ٢

وَٱلَّذِي قَدَّرَ فَهَدَىٰ ٣

وَٱلَّذِيٓ أَخۡرَجَ ٱلۡمَرۡعَىٰ ٤

فَجَعَلَهُۥ غُثَآءً أَحۡوَىٰ ٥

سَنُقۡرِئُكَ فَلَا تَنسَىٰٓ ٦

إِلَّا مَا شَآءَ ٱللَّهُۚ إِنَّهُۥ يَعۡلَمُ ٱلۡجَهۡرَ وَمَا يَخۡفَىٰ ٧

وَنُيَسِّرُكَ لِلۡيُسۡرَىٰ ٨

فَذَكِّرۡ إِن نَّفَعَتِ ٱلذِّكۡرَىٰ ٩

سَيَذَّكَّرُ مَن يَخۡشَىٰ ١٠

وَيَتَجَنَّبُهَا ٱلۡأَشۡقَى ١١

ٱلَّذِي يَصۡلَى ٱلنَّارَ ٱلۡكُبۡرَىٰ ١٢

ثُمَّ لَا يَمُوتُ فِيهَا وَلَا يَحۡيَىٰ ١٣

öləcək, nə də yaşayacaqdır.

قَدۡ أَفۡلَحَ مَن تَزَكَّىٰ ١٤

14. O kimsə nicat tapmışdır ki, [günahlardan] təmizlənmiş,

وَذَكَرَ ٱسۡمَ رَبِّهِۦ فَصَلَّىٰ ١٥

15. Rəbbinin adını xatırlamış və namaz qılmışdır.

بَلۡ تُؤۡثِرُونَ ٱلۡحَيَوٰةَ ٱلدُّنۡيَا ١٦

16. Əksinə, siz dünya həyatını üstün tutursunuz,

وَٱلۡأٓخِرَةُ خَيۡرٞ وَأَبۡقَىٰٓ ١٧

17. Axirət isə daha xeyirli və daha sürəklidir.

إِنَّ هَٰذَا لَفِي ٱلصُّحُفِ ٱلۡأُولَىٰ ١٨

18. Həqiqətən, bu [deyilənlər] əvvəlki səhifələrdə mövcuddur,

صُحُفِ إِبۡرَٰهِيمَ وَمُوسَىٰ ١٩

19. İbrahim və Musanın səhifələrində.

əl-Ğaşiyə («Bürüyən») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. Bürüyən günün [Qiyamətin] xəbəri sənə gəlib çatdımı?

2. O gün [bir çox] üzlər zəlil görkəmli olacaq,

3. [əzab-əziyyətdən] üzülüb yorğun olacaq,

4. çox qızmar oda girəcək,

5. qaynar çeşmədən içirdiləcəkdir.

6. Onlar uçun [üfunətli, çox acı və tikanlı] dari'dən başqa bir yemək olmayacaqdır.

7. [O isə onları] nə kökəldər, nə də aclıqdan qurtarar.

8. O gün [bir çox] üzlər də sevinəcək,

9. öz [göstərdikləri] səylərindən razı qalacaq,

10. uca Cənnətdə olacaq,

11. orada heç bir boş danışıq eşitməyəcəkdir.

12. Orada axar çeşmə vardır.

13. Orada uca taxtlar,

14. [qarşılarında] qoyulmuş piyalələr,

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

هَلْ أَتَىٰكَ حَدِيثُ ٱلْغَٰشِيَةِ ﴿١﴾

وُجُوهٌ يَوْمَئِذٍ خَٰشِعَةٌ ﴿٢﴾

عَامِلَةٌ نَّاصِبَةٌ ﴿٣﴾

تَصْلَىٰ نَارًا حَامِيَةً ﴿٤﴾

تُسْقَىٰ مِنْ عَيْنٍ ءَانِيَةٍ ﴿٥﴾

لَّيْسَ لَهُمْ طَعَامٌ إِلَّا مِن ضَرِيعٍ ﴿٦﴾

لَّا يُسْمِنُ وَلَا يُغْنِى مِن جُوعٍ ﴿٧﴾

وُجُوهٌ يَوْمَئِذٍ نَّاعِمَةٌ ﴿٨﴾

لِّسَعْيِهَا رَاضِيَةٌ ﴿٩﴾

فِى جَنَّةٍ عَالِيَةٍ ﴿١٠﴾

لَّا تَسْمَعُ فِيهَا لَٰغِيَةً ﴿١١﴾

فِيهَا عَيْنٌ جَارِيَةٌ ﴿١٢﴾

فِيهَا سُرُرٌ مَّرْفُوعَةٌ ﴿١٣﴾

وَأَكْوَابٌ مَّوْضُوعَةٌ ﴿١٤﴾

15. yan-yana düzülmüş balışlar

وَنَمَارِقُ مَصۡفُوفَةٞ ١٥

16. və sərilmiş xalılar vardır.

وَزَرَابِيُّ مَبۡثُوثَةٌ ١٦

17. Məgər onlar dəvəyə baxıb görmürlər ki, necə yaradılmışdır?

أَفَلَا يَنظُرُونَ إِلَى ٱلۡإِبِلِ كَيۡفَ خُلِقَتۡ ١٧

18. Göyə [baxıb görmürlər ki,] necə ucaldılmışdır?

وَإِلَى ٱلسَّمَآءِ كَيۡفَ رُفِعَتۡ ١٨

19. Dağlara [baxıb görmürlər ki,] necə sancılmışdır?

وَإِلَى ٱلۡجِبَالِ كَيۡفَ نُصِبَتۡ ١٩

20. Yerə [baxıb görmürlər ki,] necə döşədilmişdir?

وَإِلَى ٱلۡأَرۡضِ كَيۡفَ سُطِحَتۡ ٢٠

21. [Onlara] öyüd-nəsihət ver! Sən yalnız öyüd-nəsihət verənsən!

فَذَكِّرۡ إِنَّمَآ أَنتَ مُذَكِّرٞ ٢١

22. [Sən] onların üzərində hakim deyilsən!

لَّسۡتَ عَلَيۡهِم بِمُصَيۡطِرٍ ٢٢

23. Ancaq kim üz döndərib küfr etsə,

إِلَّا مَن تَوَلَّىٰ وَكَفَرَ ٢٣

24. Allah onu ən böyük əzab ilə cəzalandırar.

فَيُعَذِّبُهُ ٱللَّهُ ٱلۡعَذَابَ ٱلۡأَكۡبَرَ ٢٤

25. Şübhəsiz ki, onların dönüşü Bizədir.

إِنَّ إِلَيۡنَآ إِيَابَهُمۡ ٢٥

26. Sonra onları haqq-hesaba çəkmək də Bizə aiddir.

ثُمَّ إِنَّ عَلَيۡنَا حِسَابَهُم ٢٦

əl-Fəcr («Dan yeri») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

1. And olsun dan yerinə!

وَٱلۡفَجۡرِ ١

2. And osun on gecəyə!

وَلَيَالٍ عَشۡرٖ ٢

3. And olsun cütə və təkə!

وَٱلشَّفۡعِ وَٱلۡوَتۡرِ ٣

4. And olsun keçib getməkdə olan gecəyə!

وَٱلَّيۡلِ إِذَا يَسۡرِ ٤

5. Məgər bu [andlar] ağıl sahibi üçün kifayət deyilmi?!

هَلۡ فِي ذَٰلِكَ قَسَمٞ لِّذِي حِجۡرٍ ٥

6. Məgər görmədinmi ki, Rəbbin nələr etdi Ad qövmünə,

أَلَمۡ تَرَ كَيۡفَ فَعَلَ رَبُّكَ بِعَادٍ ٦

7. sütunlar sahibi [bu sütunlar kimi çox qüvvətli olan] İrəm qəbiləsinə,

إِرَمَ ذَاتِ ٱلۡعِمَادِ ٧

8. hansı ki, başqa ölkələrdə onun kimisi yaradılmamışdı?

ٱلَّتِي لَمۡ يُخۡلَقۡ مِثۡلُهَا فِي ٱلۡبِلَٰدِ ٨

9. Vadidə qayaları yonan Səmud qövmünə?

وَثَمُودَ ٱلَّذِينَ جَابُواْ ٱلصَّخۡرَ بِٱلۡوَادِ ٩

10. Eləcə də dirəklər sahibi Firona [dirəklər kimi qüvvətli ordusu olan və ya cəzalandırdığı kimsələri dirəklərdən asan Misir hökmdarına]?

وَفِرۡعَوۡنَ ذِي ٱلۡأَوۡتَادِ ١٠

11. O kəslər ki ölkələrdə [insanlara əzab-əziyyət verməklə] həddi aşıb,

ٱلَّذِينَ طَغَوۡاْ فِي ٱلۡبِلَٰدِ ١١

12. oralarda çoxlu fitnə-fəsad törətmişdilər.

فَأَكۡثَرُواْ فِيهَا ٱلۡفَسَادَ ١٢

13. [Sənin] Rəbbin də onların üzərinə əzab qamçısı yağdırdı.

فَصَبَّ عَلَيۡهِمۡ رَبُّكَ سَوۡطَ عَذَابٍ ١٣

14. Həqiqətən, [sənin] Rəbbin görüb-gözləməkdədir.

إِنَّ رَبَّكَ لَبِٱلۡمِرۡصَادِ ١٤

15. İnsana gəlincə, Rəbbi onu sınayıb ehtiram göstərəndə və ona nemət verəndə: «Rəbbim mənə ehtiram göstərdi!» – deyər.

فَأَمَّا ٱلۡإِنسَٰنُ إِذَا مَا ٱبۡتَلَىٰهُ رَبُّهُۥ فَأَكۡرَمَهُۥ وَنَعَّمَهُۥ فَيَقُولُ رَبِّيٓ أَكۡرَمَنِ ١٥

16. Amma onu sınayıb ruzisini azaldanda: «Rəbbim məni alçaltdı!» - deyər.

وَأَمَّآ إِذَا مَا ٱبۡتَلَىٰهُ فَقَدَرَ عَلَيۡهِ رِزۡقَهُۥ فَيَقُولُ رَبِّيٓ أَهَٰنَنِ ١٦

17. Xeyr! Əksinə, [siz özünüz] yetimə ehtiram göstərmirsiniz,

كَلَّاۖ بَل لَّا تُكۡرِمُونَ ٱلۡيَتِيمَ ١٧

18. bir-birinizi yoxsulu yedirməyə təhrik etmirsiniz,

وَلَا تَحَٰٓضُّونَ عَلَىٰ طَعَامِ ٱلۡمِسۡكِينِ ١٨

19. mirası hərisliklə yeyirsiniz,

وَتَأۡكُلُونَ ٱلتُّرَاثَ أَكۡلٗا لَّمّٗا ١٩

20. mal-dövləti də hərisliklə sevirsiniz.

وَتُحِبُّونَ ٱلۡمَالَ حُبّٗا جَمّٗا ٢٠

21. Xeyr! Elə ki yer lərzəyə gəlib parça-parça olacaq [üzərindəkilərlə birgə dağılıb dümdüz olacaq],

كَلَّآ إِذَا دُكَّتِ ٱلۡأَرۡضُ دَكّٗا دَكّٗا ٢١

22. sənin Rəbbin və səf-səf [düzülmüş] mələklər gələcək

وَجَآءَ رَبُّكَ وَٱلۡمَلَكُ صَفّٗا صَفّٗا ٢٢

23. və o gun cəhənnəm gətiriləcək. O gün insan [günahlarını] xatırlayacaqdır. Lakin belə xatırlama onun nəyinə gərəkdir?

وَجِاْيٓءَ يَوۡمَئِذِۭ بِجَهَنَّمَۚ يَوۡمَئِذٖ يَتَذَكَّرُ ٱلۡإِنسَٰنُ وَأَنَّىٰ لَهُ ٱلذِّكۡرَىٰ ٢٣

24. O: «Kaş [axirət] həyatım

يَقُولُ يَٰلَيۡتَنِي قَدَّمۡتُ لِحَيَاتِي ٢٤

üçün əvvəlcədən hazırlıq görəydim!» – deyəcəkdir.

25. O gün heç kəs Onun əzabı [kimi] əzab verə bilməz

فَيَوْمَئِذٍ لَّا يُعَذِّبُ عَذَابَهُۥٓ أَحَدٌ ﴿٢٥﴾

26. və heç kəs Onun buxovladığı [kimi] buxovlaya bilməz.

وَلَا يُوثِقُ وَثَاقَهُۥٓ أَحَدٌ ﴿٢٦﴾

27. [Möminə deyiləcəkdir:] «Ey arxayın olan kəs!

يَٰٓأَيَّتُهَا ٱلنَّفْسُ ٱلْمُطْمَئِنَّةُ ﴿٢٧﴾

28. Razı qalmış və razılıq qazanmış halda öz Rəbbinə dön!

ٱرْجِعِىٓ إِلَىٰ رَبِّكِ رَاضِيَةً مَّرْضِيَّةً ﴿٢٨﴾

29. Mənim bəndələrimə [onların zümrəsinə] daxil ol!

فَٱدْخُلِى فِى عِبَٰدِى ﴿٢٩﴾

30. [Onlarla birlikdə] Cənnətimə daxil ol!

وَٱدْخُلِى جَنَّتِى ﴿٣٠﴾

əl-Bələd («Şəhər») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. Yox! And içirəm bu şəhərə [Məkkəyə]!

2. Sən də bu şəhərdə yaşayırsan [yaxud sənə bu şəhərdə vuruşmaq halal buyurulmuşdur].

3. And olsun valideynə və onun övladına [Adəmə və onun nəslinə]!

4. [Biz] insanı məşəqqətdə yaratdıq [daima çətinliklərə məruz qalacaq bir məxluq etdik].

5. [O,] heç kəsin ona gücü çatmayacağınımı güman edir?

6. [O] deyir: «Mən çoxlu mal-dövlət həlak etmişəm!»

7. [O,] heç kəsin onu görməyəcəyinimi güman edir?

8. Məgər [Biz] ona iki göz vermədikmi?!

9. [Həmçinin] dil və iki dodaq [vermədikmi]?!

10. Ona hər iki yoxuş yolu [xeyir və şər yollarını] göstərmədikmi?!

11. [O isə] əqəbəni [dik yoxuşu, maneəni] aşmağa can atmadı.

سُورَةُ الْبَلَدِ

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

لَآ أُقْسِمُ بِهَٰذَا ٱلْبَلَدِ ١

وَأَنتَ حِلُّۢ بِهَٰذَا ٱلْبَلَدِ ٢

وَوَالِدٍ وَمَا وَلَدَ ٣

لَقَدْ خَلَقْنَا ٱلْإِنسَٰنَ فِى كَبَدٍ ٤

أَيَحْسَبُ أَن لَّن يَقْدِرَ عَلَيْهِ أَحَدٌ ٥

يَقُولُ أَهْلَكْتُ مَالًا لُّبَدًا ٦

أَيَحْسَبُ أَن لَّمْ يَرَهُۥٓ أَحَدٌ ٧

أَلَمْ نَجْعَل لَّهُۥ عَيْنَيْنِ ٨

وَلِسَانًا وَشَفَتَيْنِ ٩

وَهَدَيْنَٰهُ ٱلنَّجْدَيْنِ ١٠

فَلَا ٱقْتَحَمَ ٱلْعَقَبَةَ ١١

12. Sən nə bilərdin ki, əqəbə nədir?

وَمَآ أَدۡرَىٰكَ مَا ٱلۡعَقَبَةُ ﴿١٢﴾

13. [O,] bir kölə azad etməkdir

فَكُّ رَقَبَةٍ ﴿١٣﴾

14. və ya aclıq günündə yemək verməkdir,

أَوۡ إِطۡعَٰمٞ فِي يَوۡمٖ ذِي مَسۡغَبَةٖ ﴿١٤﴾

15. [özüdə] qohumluq əlaqəsi çatan bir yetimə,

يَتِيمٗا ذَا مَقۡرَبَةٍ ﴿١٥﴾

16. yaxud yerə yatmış bir miskinə [yemək verməkdir]!

أَوۡ مِسۡكِينٗا ذَا مَتۡرَبَةٖ ﴿١٦﴾

17. Sonra isə o, iman gətirən, bir-birinə səbr tövsiyə edən və mərhəmət tövsiyə edənlərdən olmaqdır.

ثُمَّ كَانَ مِنَ ٱلَّذِينَ ءَامَنُواْ وَتَوَاصَوۡاْ بِٱلصَّبۡرِ وَتَوَاصَوۡاْ بِٱلۡمَرۡحَمَةِ ﴿١٧﴾

18. Onlar sağ tərəf sahibləridir [əməl dəftərləri sağ əllərinə verilən kimsələrdir].

أُوْلَٰٓئِكَ أَصۡحَٰبُ ٱلۡمَيۡمَنَةِ ﴿١٨﴾

19. Ayələrimizi inkar edənlər isə sol tərəf sahibləridir [əməl dəftərləri sol əllərinə verilən kimsələrdir].

وَٱلَّذِينَ كَفَرُواْ بِـَٔايَٰتِنَا هُمۡ أَصۡحَٰبُ ٱلۡمَشۡـَٔمَةِ ﴿١٩﴾

20. Onların üzərində od qapanacaqdır.

عَلَيۡهِمۡ نَارٞ مُّؤۡصَدَةُۢ ﴿٢٠﴾

əş-Şəms («Günəş») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. And olsun günəşə və onun şəfəqinə;

2. And olsun onun ardınca çıxan aya;

3. And olsun onu [günəşi] aydın göstərən gündüzə;

4. And olsun onu [günəşi] örtən gecəyə;

5. And olsun göyə və onu qurana [yaxud onun qurulmasına];

6. And olsun yerə və onu döşəyənə [yaxud onun döşədilməsinə];

7. And olsun nəfsə və onu yaradıb kamil hala salana [yaxud onun yaradılıb kamil hala salınmasına],

8. ona günahları və Allahdan qorxmağı təlqin edənə ki,

9. onu [nəfsini günahlardan] təmizləyən hər kəs artıq uğur qazandı!

10. Onu [günaha] batıran hər kimsə isə artıq ziyana uğradı!

11. Səmud [camaatı] öz azğınlığı ilə [Allahın elçisini] təkzib etdilər.

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

وَٱلشَّمْسِ وَضُحَىٰهَا ١

وَٱلْقَمَرِ إِذَا تَلَىٰهَا ٢

وَٱلنَّهَارِ إِذَا جَلَّىٰهَا ٣

وَٱلَّيْلِ إِذَا يَغْشَىٰهَا ٤

وَٱلسَّمَآءِ وَمَا بَنَىٰهَا ٥

وَٱلْأَرْضِ وَمَا طَحَىٰهَا ٦

وَنَفْسٍ وَمَا سَوَّىٰهَا ٧

فَأَلْهَمَهَا فُجُورَهَا وَتَقْوَىٰهَا ٨

قَدْ أَفْلَحَ مَن زَكَّىٰهَا ٩

وَقَدْ خَابَ مَن دَسَّىٰهَا ١٠

كَذَّبَتْ ثَمُودُ بِطَغْوَىٰهَآ ١١

12. Onların ən bədbəxti [dəvəni kəsməyə] qalxdıqda	إِذِ ٱنۢبَعَثَ أَشۡقَىٰهَا ١٢
13. Allahın elçisi [Saleh əleyhissəlam] isə onlara belə dedi: «Allahın [möcüzə olaraq qayadan çıxartdığı bu] dişi dəvəsinə toxunmayın və onun su içməsinə mane olmayın!»	فَقَالَ لَهُمۡ رَسُولُ ٱللَّهِ نَاقَةَ ٱللَّهِ وَسُقۡيَٰهَا ١٣
14. Onlar isə onu [Allahın elçisini] təkzib etdilər və onu [dəvənin əvvəl diz vətərini sonra da özünü] kəsdilər. Onların Rəbbi də bu günahlarına görə onların hamısını məhv edib yerlə yeksan etdi [yaxud onlara əzab göndərdi və bunu da bir bərabərdə etdi].	فَكَذَّبُوهُ فَعَقَرُوهَا فَدَمۡدَمَ عَلَيۡهِمۡ رَبُّهُم بِذَنۢبِهِمۡ فَسَوَّىٰهَا ١٤
15. Və O [Allah], bunun aqibətindən qorxmaz!	وَلَا يَخَافُ عُقۡبَٰهَا ١٥

əl-Leyl («Gecə») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. And olsun [yer üzünü zülmətə] bürüməkdə olan gecəyə!

2. And olsun [günəşin çıxması ilə] aydınlaşmaqda olan gündüzə!

3. And olsun kişini və qadını [Adəm və Həvvanı, yaxud erkəkləri və dişiləri] yaradana!

4. Sizin səyləriniz [əməlləriniz] başqa-başqadır! [Bəziləriniz axirət nemətlərinə nail olmağa, digərləriniz isə dünyanı qazanmağa can atırsınız].

5. Kim [Allahın və bəndələrinin haqqını] versə və qorxsa [Allahın haram buyurduqlarından çəkinsə]

6. və ən gözəl olanı [«lə ilahə illallah»-kəlməsini] təsdiq etsə,

7. Biz ona ən asanı [yaxşı işlər görməyi, pis əməllərdən çəkinməyi] müyəssər edəcəyik.

8. Amma kim [Allahın və bəndələrinin haqqını verməyə] xəsislik etsə və [Rəbbinə] möhtac olmadığını güman etsə

9. və ən gözəl olanı [«lə ilahə illallah»-kəlməsini] təkzib etsə,

10. Biz ona ən çətini [pis işlər

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

وَاللَّيْلِ إِذَا يَغْشَىٰ ﴿١﴾

وَالنَّهَارِ إِذَا تَجَلَّىٰ ﴿٢﴾

وَمَا خَلَقَ الذَّكَرَ وَالْأُنثَىٰ ﴿٣﴾

إِنَّ سَعْيَكُمْ لَشَتَّىٰ ﴿٤﴾

فَأَمَّا مَنْ أَعْطَىٰ وَاتَّقَىٰ ﴿٥﴾

وَصَدَّقَ بِالْحُسْنَىٰ ﴿٦﴾

فَسَنُيَسِّرُهُ لِلْيُسْرَىٰ ﴿٧﴾

وَأَمَّا مَن بَخِلَ وَاسْتَغْنَىٰ ﴿٨﴾

وَكَذَّبَ بِالْحُسْنَىٰ ﴿٩﴾

فَسَنُيَسِّرُهُ لِلْعُسْرَىٰ ﴿١٠﴾

görməyi, yaxşı əməllərdən çəkinməyi] müyəssər edəcəyik.

11. [Oda] düşəcəyi zaman mal-dövləti ona fayda verməz.

وَمَا يُغْنِى عَنْهُ مَالُهُۥٓ إِذَا تَرَدَّىٰٓ ١١

12. Şubhəsiz ki, doğru yola yönəltmək Bizə aiddir

إِنَّ عَلَيْنَا لَلْهُدَىٰ ١٢

13. və sözsüz ki, Axirət də, ilk həyat [dünya] da Bizirmdir!

وَإِنَّ لَنَا لَلْـَٔاخِرَةَ وَٱلْأُولَىٰ ١٣

14. [Mən] sizi alovlanan bir odla qorxutdum.

فَأَنذَرْتُكُمْ نَارًا تَلَظَّىٰ ١٤

15. Ora ancaq ən bədbəxt [olan kimsə] girər,

لَا يَصْلَىٰهَآ إِلَّا ٱلْأَشْقَى ١٥

16. o kimsə ki [haqqı] təkzib edər və [itaətdən] üz döndərər.

ٱلَّذِى كَذَّبَ وَتَوَلَّىٰ ١٦

17. [Allahdan] ən çox qorxan isə ondan uzaqlaşdırılar.

وَسَيُجَنَّبُهَا ٱلْأَتْقَى ١٧

18. O kimsə ki, [Allah yolunda] malını verər, [günahlardan] təmizlənər,

ٱلَّذِى يُؤْتِى مَالَهُۥ يَتَزَكَّىٰ ١٨

19. əvəzi veriləsi nemət üçün onun heç kəsə minnəti olmaz [etdiyi yaxşılığa görə heç kəsdən mükafat gözləməz, yaxud hər hansı bir yaxşılığın əvəzini artıqlaması ilə ödəyər].

وَمَا لِأَحَدٍ عِندَهُۥ مِن نِّعْمَةٍ تُجْزَىٰٓ ١٩

20. [O bunu] ancaq öz Ən Uca Rəbbinin üzünü istədiyindən [edər].

إِلَّا ٱبْتِغَآءَ وَجْهِ رَبِّهِ ٱلْأَعْلَىٰ ٢٠

21. [And olsun ki, o,] mütləq razı qalacaqdır!

وَلَسَوْفَ يَرْضَىٰ ٢١

əd-Duha («Səhər»)

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

1. And olsun səhərə!

وَٱلضُّحَىٰ ﴿١﴾

2. And olsun sakitləşən [və zülməti artmaqda olan] gecəyə!

وَٱلَّيْلِ إِذَا سَجَىٰ ﴿٢﴾

3. Sənin Rəbbin [bir müddət vəhy nazil etməməklə] nə səni tərk etdi, nə də [sənə] nifrət etdi.

مَا وَدَّعَكَ رَبُّكَ وَمَا قَلَىٰ ﴿٣﴾

4. Həqiqətən, axirət sənin üçün ilk həyatdan [dünyadan] daha xeyirlidir!

وَلَلْءَاخِرَةُ خَيْرٌ لَّكَ مِنَ ٱلْأُولَىٰ ﴿٤﴾

5. Şübhəsiz ki, sənin Rəbbin sənə [nemətlər] bəxş edəcək, sən də razı qalacaqsan!

وَلَسَوْفَ يُعْطِيكَ رَبُّكَ فَتَرْضَىٰٓ ﴿٥﴾

6. O, səni [sən] yetim ikən tapıb sığınacaq vermədimi?!

أَلَمْ يَجِدْكَ يَتِيمًا فَـَٔاوَىٰ ﴿٦﴾

7. Səni yolunu itirən [halda] tapıb doğru yola yönəltmədimi [sənə bilmədiklərini öyrətmədi-mi]?!

وَوَجَدَكَ ضَآلًّا فَهَدَىٰ ﴿٧﴾

8. Səni [sən] yoxsul ikən tapıb varlandırmadımı?!

وَوَجَدَكَ عَآئِلًا فَأَغْنَىٰ ﴿٨﴾

9. Elə isə yetimi incitmə!

فَأَمَّا ٱلْيَتِيمَ فَلَا تَقْهَرْ ﴿٩﴾

10. [Səndən elm və ya kömək] istəyəni də qovma!

وَأَمَّا ٱلسَّآئِلَ فَلَا تَنْهَرْ ﴿١٠﴾

11. Və öz Rəbbinin nemətindən söhbət aç!

وَأَمَّا بِنِعْمَةِ رَبِّكَ فَحَدِّثْ ﴿١١﴾

əl-İnşirah («Açma») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

1. Məgər Biz sənin köksünü sənin üçün açmadıqmı?!

أَلَمْ نَشْرَحْ لَكَ صَدْرَكَ ١

2. Və sənin yükünü səndən götürmədikmi?!

وَوَضَعْنَا عَنكَ وِزْرَكَ ٢

3. [O yük] ki, sənin belini bükürdü.

الَّذِي أَنقَضَ ظَهْرَكَ ٣

4. Biz sənin adını sənə görə ucaltmadıqmı?!

وَرَفَعْنَا لَكَ ذِكْرَكَ ٤

5. Və həqiqətən, hər bir çətinliyin ardınca asanlıq gələr!

فَإِنَّ مَعَ الْعُسْرِ يُسْرًا ٥

6. Həqiqətən, hər bir çətinliyin ardınca asanlıq gələr!

إِنَّ مَعَ الْعُسْرِ يُسْرًا ٦

7. [Dünya işlərindən] azad olan kimi [Allah yolunda] çalış!

فَإِذَا فَرَغْتَ فَانصَبْ ٧

8. Və [ancaq] öz Rəbbinə tərəf üz tut! [Dualarının və ibadətlərinin qəbul olmasını yalnız Ondan dilə]

وَإِلَىٰ رَبِّكَ فَارْغَب ٨

ət-Tin («Əncir») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

1. And olsun əncirə və zeytuna,

وَٱلتِّينِ وَٱلزَّيْتُونِ ﴿١﴾

2. And olsun Sinay dağına,

وَطُورِ سِينِينَ ﴿٢﴾

3. And olsun bu təhlükəsiz şəhərə [Məkkəyə] ki,

وَهَٰذَا ٱلْبَلَدِ ٱلْأَمِينِ ﴿٣﴾

4. Biz insanı ən gözəl biçimdə yaratdıq!

لَقَدْ خَلَقْنَا ٱلْإِنسَٰنَ فِىٓ أَحْسَنِ تَقْوِيمٍ ﴿٤﴾

5. Sonra isə [Biz] onu aşağıların ən aşağısına [Cəhənnəmin ən aşağı təbəqəsinə] atarıq.

ثُمَّ رَدَدْنَٰهُ أَسْفَلَ سَٰفِلِينَ ﴿٥﴾

6. Yalnız iman gətirib saleh əməllər edən kimsələrdən başqa! Onlar üçün tükənməz mükafat vardır.

إِلَّا ٱلَّذِينَ ءَامَنُوا۟ وَعَمِلُوا۟ ٱلصَّٰلِحَٰتِ فَلَهُمْ أَجْرٌ غَيْرُ مَمْنُونٍ ﴿٦﴾

7. [Ey insan!] Bundan sonra dini [haqq-hesab gününü] yalan saymağa səni nə vadar edir?!

فَمَا يُكَذِّبُكَ بَعْدُ بِٱلدِّينِ ﴿٧﴾

8. Məgər Allah hakimlərin ən Müdriki deyilmi?

أَلَيْسَ ٱللَّهُ بِأَحْكَمِ ٱلْحَٰكِمِينَ ﴿٨﴾

əl-Ələq («Qan laxtası») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. [Hər şeyi] yaradan Rəbbinin adı ilə oxu!

2. [O,] insanı qan laxtasından yaratdı!

3. Oxu! Axı sənin Rəbbin ən Səxavətli olandır.

4. Hansı ki, qələmlə [yazmağı] öyrətdi,

5. insana bilmədiklərini öyrətdi.

6. Xeyr! İnsan, doğrudan da, həddini aşır,

7. özünün ehtiyacsız olduğunu gördüyü üçün.

8. Axı axır dönüş sənin Rəbbinədir!

9. Gördünmü o kimsəni ki, mane olur

10. bir bəndəyə namaz qılanda?

11. Söylə görək, hərgah [o bəndə] doğru yoldadırsa,

12. yaxud Allahdan qorxmağı əmr edirsə [onda necə]?!

13. Söylə görək, hərgah [o sənin namaz qılmağına mane olan kəs] (haqqı) təkzib edib üz döndəribsə [onda necə]?!

سُورَةُ العَلَقِ

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

ٱقۡرَأۡ بِٱسۡمِ رَبِّكَ ٱلَّذِي خَلَقَ ١

خَلَقَ ٱلۡإِنسَٰنَ مِنۡ عَلَقٍ ٢

ٱقۡرَأۡ وَرَبُّكَ ٱلۡأَكۡرَمُ ٣

ٱلَّذِي عَلَّمَ بِٱلۡقَلَمِ ٤

عَلَّمَ ٱلۡإِنسَٰنَ مَا لَمۡ يَعۡلَمۡ ٥

كَلَّآ إِنَّ ٱلۡإِنسَٰنَ لَيَطۡغَىٰٓ ٦

أَن رَّءَاهُ ٱسۡتَغۡنَىٰٓ ٧

إِنَّ إِلَىٰ رَبِّكَ ٱلرُّجۡعَىٰٓ ٨

أَرَءَيۡتَ ٱلَّذِي يَنۡهَىٰ ٩

عَبۡدًا إِذَا صَلَّىٰٓ ١٠

أَرَءَيۡتَ إِن كَانَ عَلَى ٱلۡهُدَىٰٓ ١١

أَوۡ أَمَرَ بِٱلتَّقۡوَىٰٓ ١٢

أَرَءَيۡتَ إِن كَذَّبَ وَتَوَلَّىٰٓ ١٣

14. Məgər o bilmirdi ki, Allah [hər şeyi] görür?

أَلَمْ يَعْلَم بِأَنَّ ٱللَّهَ يَرَىٰ ﴿١٤﴾

15. Xeyr! Əgər son qoymasa, [Biz onu mütləq] kəkilindən tutacağıq –

كَلَّا لَئِن لَّمْ يَنتَهِ لَنَسْفَعًۢا بِٱلنَّاصِيَةِ ﴿١٥﴾

16. yalançı, günahkar kəkilindən.

نَاصِيَةٍ كَٰذِبَةٍ خَاطِئَةٍ ﴿١٦﴾

17. Qoy o öz yığnağını [havadarlarını] çağırsın!

فَلْيَدْعُ نَادِيَهُۥ ﴿١٧﴾

18. Biz də Cəhənnəm gözətçilərini çağırarıq.

سَنَدْعُ ٱلزَّبَانِيَةَ ﴿١٨﴾

19. Xeyr, ona itaət etmə! [Allaha] səcdə et və [Ona] yaxınlaş!

كَلَّا لَا تُطِعْهُ وَٱسْجُدْ وَٱقْتَرِب ۩ ﴿١٩﴾

əl-Qədr («Qədr gecəsi») surəsi

سُورَةُ القَدۡرِ

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

1. Həqiqətən, Biz onu [Quranı] Qədr gecəsində [dünya səmasına] nazil etdik!

إِنَّآ أَنزَلۡنَٰهُ فِي لَيۡلَةِ ٱلۡقَدۡرِ ١

2. Sən nə bilərdin ki, Qədr gecəsi nədir?!

وَمَآ أَدۡرَىٰكَ مَا لَيۡلَةُ ٱلۡقَدۡرِ ٢

3. Qədr gecəsi min aydan xeyirlidir. [Bu əzəmətli gecə Ramazan ayının axır on günündəki tək gecələrə (21, 23, 25, 27 və 29-cu gecələrə) təsadüf edir və həmin gecədə gələn Ramazan ayına qədər olacaq hər bir şeyin müqəddəratı yazılır].

لَيۡلَةُ ٱلۡقَدۡرِ خَيۡرٞ مِّنۡ أَلۡفِ شَهۡرٖ ٣

4. Onda [o gecədə] mələklər və Ruh [Cəbrail] öz Rəbbinin izni ilə hər bir işdən ötrü yerə enərlər.

تَنَزَّلُ ٱلۡمَلَٰٓئِكَةُ وَٱلرُّوحُ فِيهَا بِإِذۡنِ رَبِّهِم مِّن كُلِّ أَمۡرٖ ٤

5. O [gecə], dan yeri sökülənə qədər əmin-amanlıqdır!

سَلَٰمٌ هِيَ حَتَّىٰ مَطۡلَعِ ٱلۡفَجۡرِ ٥

əl-Beyyinə («Açıq-aydın dəlil») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

1. Kitab əhlindən [yəhudilərdən, nəsranilərdən] küfr etmiş kimsələr və müşriklər özlərinə açıq-aydın dəlil gəlməyincə [küfrdən] ayrılmadılar.

لَمْ يَكُنِ ٱلَّذِينَ كَفَرُوا۟ مِنْ أَهْلِ ٱلْكِتَٰبِ وَٱلْمُشْرِكِينَ مُنفَكِّينَ حَتَّىٰ تَأْتِيَهُمُ ٱلْبَيِّنَةُ ﴿١﴾

2. [Bu dəlil isə] pak edilmiş səhifələri oxuyan, Allah tərəfindən göndərilmiş elçidir.

رَسُولٌ مِّنَ ٱللَّهِ يَتْلُوا۟ صُحُفًا مُّطَهَّرَةً ﴿٢﴾

3. Onlarda [bu səhifələrdə] doğru yazılar [xəbərlər və hökmlər] vardır.

فِيهَا كُتُبٌ قَيِّمَةٌ ﴿٣﴾

4. Özlərinə Kitab verilmiş kimsələr yalnız onlara açıq-aydın dəlil gəldikdən sonra ayrıldılar.

وَمَا تَفَرَّقَ ٱلَّذِينَ أُوتُوا۟ ٱلْكِتَٰبَ إِلَّا مِنۢ بَعْدِ مَا جَآءَتْهُمُ ٱلْبَيِّنَةُ ﴿٤﴾

5. Halbuki onlara ancaq Allaha – dini məhz Ona məxsus edərək həniflər [Tək Allaha ibadət edib ona şərik qoşmayanlar] kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din budur!

وَمَآ أُمِرُوٓا۟ إِلَّا لِيَعْبُدُوا۟ ٱللَّهَ مُخْلِصِينَ لَهُ ٱلدِّينَ حُنَفَآءَ وَيُقِيمُوا۟ ٱلصَّلَوٰةَ وَيُؤْتُوا۟ ٱلزَّكَوٰةَ ۚ وَذَٰلِكَ دِينُ ٱلْقَيِّمَةِ ﴿٥﴾

6. Həqiqətən, Kitab əhlindən küfr etmiş kimsələr və müşriklər Cəhənnəm odunda əbədi qalacaqlar. Onlar məxluqların ən pisidirlər.

إِنَّ ٱلَّذِينَ كَفَرُوا۟ مِنْ أَهْلِ ٱلْكِتَٰبِ وَٱلْمُشْرِكِينَ فِى نَارِ جَهَنَّمَ خَٰلِدِينَ فِيهَآ ۚ أُو۟لَٰٓئِكَ هُمْ شَرُّ ٱلْبَرِيَّةِ ﴿٦﴾

7. Həqiqətən, iman gətirib saleh əməllər etmiş kimsələr isə məxluqların ən yaxşısıdırlar.

إِنَّ ٱلَّذِينَ ءَامَنُواْ وَعَمِلُواْ ٱلصَّٰلِحَٰتِ أُوْلَٰٓئِكَ هُمۡ خَيۡرُ ٱلۡبَرِيَّةِ ٧

8. Onların öz Rəbbi yanında mükafatı altından [ağacları dibindən] çaylar axan, orada əbədi qalacaqları Ədn [cənnət] bağlarıdır. Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Bu [mükafat], öz Rəbbindən qorxan üçündür!

جَزَآؤُهُمۡ عِندَ رَبِّهِمۡ جَنَّٰتُ عَدۡنٖ تَجۡرِي مِن تَحۡتِهَا ٱلۡأَنۡهَٰرُ خَٰلِدِينَ فِيهَآ أَبَدٗاۖ رَّضِيَ ٱللَّهُ عَنۡهُمۡ وَرَضُواْ عَنۡهُۚ ذَٰلِكَ لِمَنۡ خَشِيَ رَبَّهُۥ ٨

əz-Zəlzələ («Sarsıdılma») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. Yer öz [şiddətli] sarsıntısı ilə sarsıdıldıqda,

2. yer öz yüklərini çıxardacaq [içində olanları bayıra atacaq]

3. və insan: «Ona nə olubdur?» – deyəcək.

4. O gün [yer] öz xəbərlərini söyləyəcəkdir [İnsanlara, onun üstündə nə etdikləri barədə xəbər verəcəkdir].

5. Çünki Rəbbin ona vəhy [əmr] edəcəkdir.

6. O gün insanlar dəstə-dəstə [məhşərə] çıxacaqlar ki, əməlləri onlara göstərilsin.

7. Kim zərrə qədər yaxşılıq etmişdirsə, onu da görəcəkdir.

8. Və kim zərrə qədər pislik etmişdirsə, onu da görəcəkdir.

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

إِذَا زُلْزِلَتِ ٱلْأَرْضُ زِلْزَالَهَا ١

وَأَخْرَجَتِ ٱلْأَرْضُ أَثْقَالَهَا ٢

وَقَالَ ٱلْإِنسَٰنُ مَا لَهَا ٣

يَوْمَئِذٍ تُحَدِّثُ أَخْبَارَهَا ٤

بِأَنَّ رَبَّكَ أَوْحَىٰ لَهَا ٥

يَوْمَئِذٍ يَصْدُرُ ٱلنَّاسُ أَشْتَاتًا لِّيُرَوْا۟ أَعْمَٰلَهُمْ ٦

فَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ خَيْرًا يَرَهُۥ ٧

وَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ شَرًّا يَرَهُۥ ٨

əl-Adiyat («Çapanlar») surəsi

سُورَةُ العَادِيَاتِ

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

1. And olsun tövşüyə-tövşüyə çapanlara [cihad zamanı qabaqda qaçan atlara],

وَالْعَادِيَاتِ ضَبْحًا ﴿١﴾

2. and olsun qığılcım çıxaranlara [dırnaqları ilə qığılcım saçan atlara],

فَالْمُورِيَاتِ قَدْحًا ﴿٢﴾

3. and olsun sübh çağı hücum edənlərə,

فَالْمُغِيرَاتِ صُبْحًا ﴿٣﴾

4. [o atlara ki,] onunla [hücum etməklə] toz qaldırırlar

فَأَثَرْنَ بِهِ نَقْعًا ﴿٤﴾

5. və onunla [atlılarla, yaxud tozanaqla] mə'rəkənin [düşmən dəstəsin] içərisinə soxulurlar!

فَوَسَطْنَ بِهِ جَمْعًا ﴿٥﴾

6. Həqiqətən, insan öz Rəbbinə qarşı naşükürdür

إِنَّ الْإِنسَانَ لِرَبِّهِ لَكَنُودٌ ﴿٦﴾

7. Və həqiqətən, o, [özü də] buna şahiddir.

وَإِنَّهُ عَلَىٰ ذَٰلِكَ لَشَهِيدٌ ﴿٧﴾

8. Həqiqətən, o, xeyirə [var-dövlətə] çox hərisdir!

وَإِنَّهُ لِحُبِّ الْخَيْرِ لَشَدِيدٌ ﴿٨﴾

9. Məgər o bilmir ki, qəbirlərdə olanlar çevrildikdə [dirildilib çıxardıldıqda]

۞ أَفَلَا يَعْلَمُ إِذَا بُعْثِرَ مَا فِي الْقُبُورِ ﴿٩﴾

10. və köksləndə olan [xeyir və ya şər] üzə çıxarıldıqda,

وَحُصِّلَ مَا فِي الصُّدُورِ ﴿١٠﴾

11. şübhəsiz ki, onların Rəbbi o gün onlardan xəbərdar ola-

إِنَّ رَبَّهُم بِهِمْ يَوْمَئِذٍ لَّخَبِيرٌ ﴿١١﴾

caqdır [Uca Allah əzəldən hər şeydən xəbərdar olduğu kimi o gün də onlardan xəbərdar olacaqdır].

əl-Qariə («Qəlbləri qorxuya salan») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. Qəlbləri qorxuya salan [Qiyamət]!

2. Nədir qəlbləri qorxuya salan?!

3. Sən nə bilərdin ki, qəlbləri qorxuya salan nədir?!

4. O gün insanlar səpələnmiş pərvanələr kimi olacaqlar,

5. dağlar isə didilmiş yun kimi olacaqdır.

6. Kimin tərəziləri [yaxud tərəzidə çəkiləcək əməlləri] ağır gələrsə,

7. o xoş güzəran içində olacaqdır!

8. Kimin tərəziləri [yaxud tərəzidə çəkiləcək əməlləri] yüngül gələrsə,

9. onun anası Haviyə [Uçurum] olacaqdır [O, öz anasına sığındığı kimi bu Uçuruma sığınacaqdır]!

10. Sən nə bilərdin ki, o nədir?!

11. [O,] çox qızmar bir oddur.

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

ٱلْقَارِعَةُ ﴿١﴾

مَا ٱلْقَارِعَةُ ﴿٢﴾

وَمَآ أَدْرَىٰكَ مَا ٱلْقَارِعَةُ ﴿٣﴾

يَوْمَ يَكُونُ ٱلنَّاسُ كَٱلْفَرَاشِ ٱلْمَبْثُوثِ ﴿٤﴾

وَتَكُونُ ٱلْجِبَالُ كَٱلْعِهْنِ ٱلْمَنفُوشِ ﴿٥﴾

فَأَمَّا مَن ثَقُلَتْ مَوَٰزِينُهُۥ ﴿٦﴾

فَهُوَ فِى عِيشَةٍ رَّاضِيَةٍ ﴿٧﴾

وَأَمَّا مَنْ خَفَّتْ مَوَٰزِينُهُۥ ﴿٨﴾

فَأُمُّهُۥ هَاوِيَةٌ ﴿٩﴾

وَمَآ أَدْرَىٰكَ مَا هِيَهْ ﴿١٠﴾

نَارٌ حَامِيَةٌۢ ﴿١١﴾

ət-Təkasur («Çoxluqla öyünmə» və ya «Çoxluğa həris olma») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. Çoxluqla öyünmək [yaxud çoxluğa həris olmaq] sizin başınızı qatdı.

2. O vaxta qədər ki, qəbirləri ziyarət etdiniz [öldünüz].

3. Xeyr! Siz biləcəksiniz!

4. Bir daha xeyr! Siz biləcəksiniz!

5. Xeyr! Əgər siz [əməllərinizin aqibətini] yəqinliklə bilsəydiniz [yaramaz işlərdən çəkinib yaxşı işlər görməyə tələsərdiniz].

6. Siz Cəhənnəmi mütləq görəcəksiniz!

7. Bir daha, siz onu [olduğu kimi] öz gözünüzlə görəcəksiniz!

8. Sonra, o gün [Allahın dünyada sizə verdiyi] nemətlər barəsində mütləq soruşulacaqsınız.

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

أَلۡهَىٰكُمُ ٱلتَّكَاثُرُ ١

حَتَّىٰ زُرۡتُمُ ٱلۡمَقَابِرَ ٢

كَلَّا سَوۡفَ تَعۡلَمُونَ ٣

ثُمَّ كَلَّا سَوۡفَ تَعۡلَمُونَ ٤

كَلَّا لَوۡ تَعۡلَمُونَ عِلۡمَ ٱلۡيَقِينِ ٥

لَتَرَوُنَّ ٱلۡجَحِيمَ ٦

ثُمَّ لَتَرَوُنَّهَا عَيۡنَ ٱلۡيَقِينِ ٧

ثُمَّ لَتُسۡـَٔلُنَّ يَوۡمَئِذٍ عَنِ ٱلنَّعِيمِ ٨

əl-Asr («Axşam çağı») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

1. And olsun axşam çağına [yaxud zəmanəyə],

وَٱلْعَصْرِ ١

2. həqiqətən də insan ziyan içərisindədir,

إِنَّ ٱلْإِنسَٰنَ لَفِى خُسْرٍ ٢

3. o kimsələrdən başqa ki, onlar iman gətirib saleh əməllər ediblər, bir-birinə haqqı tövsiyə ediblər və bir-birinə səbri tövsiyə ediblər!

إِلَّا ٱلَّذِينَ ءَامَنُوا۟ وَعَمِلُوا۟ ٱلصَّٰلِحَٰتِ وَتَوَاصَوْا۟ بِٱلْحَقِّ وَتَوَاصَوْا۟ بِٱلصَّبْرِ ٣

əl-Huməzə («Tənə edən») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. Vay hər bir qeybət edənin, tənə vuranın halına!

2. o kimsə ki, mal-dövlət toplayıb onu dəfələrlə sayar.

3. Elə güman edər ki, mal-dövləti onu əbədiləşdirəcəkdir.

4. Xeyr! O mütləq Hutəməyə atılacaqdır.

5. Sən nə bilərdin ki, Hutəmə nədir?!

6. [Hutəmə] Allahın alışdırılmış odudur

7. hansı ki, ürəklərin üstünə çatır.

8. Həqiqətən, o, onların üzərinə qapanacaqdır,

9. [özləri isə bu odun içərisindəki] uzadılmış sütunlarda [onlara bağlanmış vəziyyətdə, yaxud onların içərisində olacaqlar].

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

وَيْلٌ لِّكُلِّ هُمَزَةٍ لُّمَزَةٍ ١

ٱلَّذِى جَمَعَ مَالًا وَعَدَّدَهُۥ ٢

يَحْسَبُ أَنَّ مَالَهُۥٓ أَخْلَدَهُۥ ٣

كَلَّا لَيُنۢبَذَنَّ فِى ٱلْحُطَمَةِ ٤

وَمَآ أَدْرَىٰكَ مَا ٱلْحُطَمَةُ ٥

نَارُ ٱللَّهِ ٱلْمُوقَدَةُ ٦

ٱلَّتِى تَطَّلِعُ عَلَى ٱلْأَفْـِٔدَةِ ٧

إِنَّهَا عَلَيْهِم مُّؤْصَدَةٌ ٨

فِى عَمَدٍ مُّمَدَّدَةٍ ٩

əl-Fil («Fil») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. Məgər görmədinmi ki, Rəbbin nələr etdi fil sahiblərinə?

2. Məgər [O,] onların hiyləsini dolaşığa salmadımı?!

3. Və onların üzərinə qatar-qatar quşlar göndərmədimi?!

4. [O quşlar ki,] onların üstünə bərkimiş [odda bişmiş] gildən daşlar yağdırdı.

5. Və O [Rəbbin], onları sanki yeyilmiş [və qurumuş] əkin yarpağına döndərdi.

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

أَلَمْ تَرَ كَيْفَ فَعَلَ رَبُّكَ بِأَصْحَٰبِ ٱلْفِيلِ ﴿١﴾

أَلَمْ يَجْعَلْ كَيْدَهُمْ فِى تَضْلِيلٍ ﴿٢﴾

وَأَرْسَلَ عَلَيْهِمْ طَيْرًا أَبَابِيلَ ﴿٣﴾

تَرْمِيهِم بِحِجَارَةٍ مِّن سِجِّيلٍ ﴿٤﴾

فَجَعَلَهُمْ كَعَصْفٍ مَّأْكُولٍ ﴿٥﴾

əl-Qureyş («Qureyş») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. Qureyşin birliyi xatirinə,

2. onların qış və yay səfərlərindəki birliyi xatirinə,

3. onlar bu evin [Kə'bənin] Rəbbinə ibadət etsinlər,

4. Hansı ki, onlara yemək verib aclıqdan qurtardı və əmin-amanlıq bəxş edib qorxudan xilas etdi.

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

لِإِيلَٰفِ قُرَيۡشٍ ١

إِۦلَٰفِهِمۡ رِحۡلَةَ ٱلشِّتَآءِ وَٱلصَّيۡفِ ٢

فَلۡيَعۡبُدُواْ رَبَّ هَٰذَا ٱلۡبَيۡتِ ٣

ٱلَّذِيٓ أَطۡعَمَهُم مِّن جُوعٖ وَءَامَنَهُم مِّنۡ خَوۡفِۭ ٤

əl-Maun («Xırda-xuruş») surəsi

سُورَةُ المَاعُونِ

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

1. Gördünmü o kimsəni ki, dini [haqq-hesab olunacağını] yalan hesab edir?

أَرَءَيْتَ ٱلَّذِى يُكَذِّبُ بِٱلدِّينِ ﴿١﴾

2. O – o kimsədir ki, yetimi qovar [haqqını verməz],

فَذَٰلِكَ ٱلَّذِى يَدُعُّ ٱلْيَتِيمَ ﴿٢﴾

3. və [camaatı] yoxsulu yedirtməyə təhrik etməz.

وَلَا يَحُضُّ عَلَىٰ طَعَامِ ٱلْمِسْكِينِ ﴿٣﴾

4. Vay [o] namaz qılanların halına,

فَوَيْلٌ لِّلْمُصَلِّينَ ﴿٤﴾

5. o kimsələr ki, öz namazlarına diqqətsizdirlər [namazlarına etinasız yanaşdıqları üçün onları vaxtında qılmazlar],

ٱلَّذِينَ هُمْ عَن صَلَاتِهِمْ سَاهُونَ ﴿٥﴾

6. o kimsələr ki, riyakarlıq edir

ٱلَّذِينَ هُمْ يُرَآءُونَ ﴿٦﴾

7. və xırda-xuruş [zəkat və ya müvəqqəti istifadə üçün verilən bir əşyanı] verməkdən imtina edirlər.

وَيَمْنَعُونَ ٱلْمَاعُونَ ﴿٧﴾

əl-Kəusər («Bolluq») surəsi

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

إِنَّآ أَعۡطَيۡنَٰكَ ٱلۡكَوۡثَرَ ﴿١﴾

1. Həqiqətən, Biz sənə bolluq [Cənnətdə axan çay və s. bol nemətlər] əta etdik.

فَصَلِّ لِرَبِّكَ وَٱنۡحَرۡ ﴿٢﴾

2. [Odur ki,] Rəbbin üçün namaz qıl və [qurban] kəs!

إِنَّ شَانِئَكَ هُوَ ٱلۡأَبۡتَرُ ﴿٣﴾

3. Şübhəsiz ki, sənə ədavətkar olanın özü sonsuzdur.

əl-Kafirun («Kafirlər») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

1. De: «Ey kafirlər!

قُلْ يَٰٓأَيُّهَا ٱلْكَٰفِرُونَ ﴿١﴾

2. Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm,

لَآ أَعْبُدُ مَا تَعْبُدُونَ ﴿٢﴾

3. siz də mənim ibadət etdiyimə [Allaha] ibadət edən deyilsiniz.

وَلَآ أَنتُمْ عَٰبِدُونَ مَآ أَعْبُدُ ﴿٣﴾

4. Və Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm,

وَلَآ أَنَا۠ عَابِدٌ مَّا عَبَدتُّمْ ﴿٤﴾

5. siz də mənim ibadət etdiyimə [Allaha] ibadət edən deyilsiniz.

وَلَآ أَنتُمْ عَٰبِدُونَ مَآ أَعْبُدُ ﴿٥﴾

6. Sizin dininiz sizə, mənim dinim də mənədir!»

لَكُمْ دِينُكُمْ وَلِىَ دِينِ ﴿٦﴾

ən-Nəsr («Kömək») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. Allahın köməyi və zəfər gəldikdə,

2. insanların dəstə-dəstə Allahın dininə daxil olduqlarını gördükdə,

3. həmd-səna ilə Rəbbinin şəninə təriflər de və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

إِذَا جَآءَ نَصۡرُ ٱللَّهِ وَٱلۡفَتۡحُ ﴿١﴾

وَرَأَيۡتَ ٱلنَّاسَ يَدۡخُلُونَ فِي دِينِ ٱللَّهِ أَفۡوَاجٗا ﴿٢﴾

فَسَبِّحۡ بِحَمۡدِ رَبِّكَ وَٱسۡتَغۡفِرۡهُۚ إِنَّهُۥ كَانَ تَوَّابَۢا ﴿٣﴾

əl-Məsəd («Xurma lifi») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. Əbu Ləhəbin əlləri qurusun, qurudu da!

2. Onu [Allahın əzabından] nə mal-dövləti, nə də qazandığı [övlad və s.] qurtardı.

3. [O,] alovlu bir oda girəcəkdir,

4. onun odun daşıyan arvadı da [oda girəcəkdir]

5. onun [arvadının] boynunda xurma liflərindən [hazırlanmış] kəndir olacaqdır.

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

تَبَّتْ يَدَآ أَبِى لَهَبٍ وَتَبَّ ﴿١﴾

مَآ أَغْنَىٰ عَنْهُ مَالُهُۥ وَمَا كَسَبَ ﴿٢﴾

سَيَصْلَىٰ نَارًا ذَاتَ لَهَبٍ ﴿٣﴾

وَٱمْرَأَتُهُۥ حَمَّالَةَ ٱلْحَطَبِ ﴿٤﴾

فِى جِيدِهَا حَبْلٌ مِّن مَّسَدٍۭ ﴿٥﴾

əl-İxlas («Səmimi e'tiqad») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. De: «O Allah Təkdir!

2. Allah [heç kəsə, heç nəyə] möhtac olmayandır [əksinə, hər bir məxluq Ona möhtacdır].

3. O, nə doğub, nə də doğulubdur.

4. Və Onun heç bir tayı-bərabəri də yoxdur».

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

قُلۡ هُوَ ٱللَّهُ أَحَدٌ ١

ٱللَّهُ ٱلصَّمَدُ ٢

لَمۡ يَلِدۡ وَلَمۡ يُولَدۡ ٣

وَلَمۡ يَكُن لَّهُۥ كُفُوًا أَحَدُۢ ٤

əl-Fələq («Sübh») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

1. De: «Pənah aparıram sübhün Rəbbinə

قُلۡ أَعُوذُ بِرَبِّ ٱلۡفَلَقِ ﴿١﴾

2. yaratdıqlarının şərindən,

مِن شَرِّ مَا خَلَقَ ﴿٢﴾

3. çökməkdə olan zülmətin [gecənin] şərindən,

وَمِن شَرِّ غَاسِقٍ إِذَا وَقَبَ ﴿٣﴾

4. düyünlərə tüpürən [cadugar] qadınların şərindən

وَمِن شَرِّ ٱلنَّفَّٰثَٰتِ فِي ٱلۡعُقَدِ ﴿٤﴾

5. və paxıllıq edərkən paxılın şərindən!»

وَمِن شَرِّ حَاسِدٍ إِذَا حَسَدَ ﴿٥﴾

ən-Nas («İnsanlar») surəsi

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

1. De: «Pənah aparıram insanların Rəbbinə,

2. insanların Hökmdarına,

3. insanların Tanrısına,

4. vəsvəsə verən, [Allahın adı çəkiləndə] geri çəkilənin [şeytanın] şərindən

5. hansı ki, insanların köksələrinə vəsvəsə salır,

6. cinlərdən də [olur], insanlardan da!»

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

قُلْ أَعُوذُ بِرَبِّ ٱلنَّاسِ ﴿١﴾

مَلِكِ ٱلنَّاسِ ﴿٢﴾

إِلَٰهِ ٱلنَّاسِ ﴿٣﴾

مِن شَرِّ ٱلْوَسْوَاسِ ٱلْخَنَّاسِ ﴿٤﴾

ٱلَّذِى يُوَسْوِسُ فِى صُدُورِ ٱلنَّاسِ ﴿٥﴾

مِنَ ٱلْجِنَّةِ وَٱلنَّاسِ ﴿٦﴾

فهرس بأسماء السور وبيان المكي والمدني منها

Mündəricat

ص.ب ٦٢٦٢ - المدينة المنورة

əl-Fatihə surəsi və cüz Əmmənin

Azərbaycan dilinə

tərcüməsi

Məlik Fəhd adınaQuran çapı mərkəzi